# Nura

**Şəhid Hüseyn Həmədaninin epik tərcümeyi-halı**

**Nida Rəsuli**

**Bismillahir rəhmanir rəhim**

# Birinci fəsil

Həyət qapısının zəngi çalınanda ürəyim üzüldü. Cəld pəncərəyə tərəf yüyürüb, pərdəni kənara çəkdim: "Əh! Nə pis oldu! Mina heç vaxt bu saatda evə qayıtmazdı!"

Həyət qapısından eyvana və sonra da qonaq otağınadək cəmi altı-yeddi addım idi. İstəmirdim Mina bilsin ki, icazəsiz nout-bukuna açıb baxmışam. Əgər bilsə, neyləyərəm, yəqin ki, dərimi soyar. Tez "Əbu Vəhəb" qovluğunu bağladım və flaş kartı heç bir fayl yükləməyə imkan tapmadan dərhal çıxartdım. Siçanı monitorun bir guşəsinə çəkib, ekranı qaralandan sonra nout-buku söndürdüm və flaşı da ovcumda sıxdım. Fikrim hələ qovluqda idi. Mina özü onu belə – Əbu Vəhəb (Hüseyn Həmədani) adlandırmışdı.

Onun vaxtsız gəlişi yaman kefimi pozdu. Otağıma girəndə bərkdən qışqırdım: "Bu gün universitetə getməyəcəksən?!" Bu il Minanın birinci təhsil ili idi və mən də yeddinci sinifə keçmişdim. Otağının qapısı qarşısından əlindəki rekorderi mənə göstərərək dedi: "Bunu aparmaq yadımdan çıxmışdı. Dərsdən sonra müsahibələrin ardını yazmağa getməliyəm..." "Axırıncı görüşdür və müsahibələr sona çatır" sözünə ürəyimdə sevinərkən əlini böyrünə vurub dedi:

– Yenə telefon əlindədir! Yəni sənin başqa işin, dərs və tapşırığın yoxdur?!

– Elə indi götürmüşəm!

– Belə olmaz! Anaya deyəcəyəm ki, yalnız özü evdə olanda telefonu sənə versin! Beləcə, verdiyin sözün üstündə durarsan və çox da telefonla oynamazsan!

Minanın həmişə bir gözü mənim işlərimin üstündə idi və hər nə edirdimsə, ata-anama xəbər verirdi. Bu xasiyyətinə görə min dəfə arzu edirdim ki, kaş, onun yerinə rəfiqəm Səna bacım olaydı. Birdən yenə səsi qulağımda cingildədi: "Bəs, sənə demədimmi dərslərinlə məşğul ol?! Heç vecinə deyil ha!" Bir anlıq özümdən asılı olmayaraq yanımdakı taburetin üstündən "dart"ı qapıb, ona tərəf tulladım. Dərhal başını geri çəkərək dedi: "Səfehin biri! Bircə mənə dəyəydi!" Nişangaha baxıb, gördüm ki, dart (ox) onun dairəsinin düz ortasına sancılıb. Özümdən razı halda gülümsəyərək dedim: "Qorxma, mən quşu gözündən vururam! Sən də bu qədər işlərimə qarışma!" O da barmağı ilə eynəyini bir qədər yuxarı qaldırıb, qaşlarını çatandan sonra çıxıb getdi. Həyət qapısının səsi eşidilən kimi yenə otağına girdim: "Tərsliyə bax! Axı, sənə kim dedi nout-buku aparasan?! Heç nə, qaldı sabaha!"

İki ay əvvəl məktəbdə zalın divarına vurulan elan – Şagirdlərin yazı və əl qabiliyyətləri üzrə festivalı – diqqətimi cəlb etsə də əhəmiyyət vermədim. Amma sonra Səna "gəl iştirak edək, elə edərik, belə edərik..." – deyərək baş-beynimi apararkən dedim: "Bura bax, mənim beynimdə heç bir ideya yoxdur! Axı, mənim harama yaraşır inşa, ixtira, nə bilim nə?!" O isə "ixtira" qabiliyyətində rəqabətə qoşulacağını bildirərək təbəssümlə mənə bir göz vurub dedi: "Əlbəttə, bağışla ha, hələlik, öz ideyamı açmaq fikrim yoxdur!" Mən də gülümsəyərək dedim: "Arxayın ol! Mənim nə qoşulmaq fikrim var, nə də ləvazimatım!" Səna ikiəlli çiyinlərimdən sıxaraq dedi:

"Nura, ləvazimat istəmir! İxtiranı qoy qırağa, sənin gözəl inşa yazmaq istedadın var. Keçən ilki kimi bir şey yaz; qısa formada yazıb ədəbiyyat dərsinin tənəffüsündə oxuduğun neçə qısa hekayə kimi, amma bu dəfə bir az geniş, təqribən kiçik həcmli kitab həddində, bu da olar sənin üçün əsər, daha nə istəyirsən!" Dərindən nəfəsimi fit çalaraq çölə üfürüb dedim: "Sən Allah, bəsdir! Mən hara, kitab yazmaq hara!"

Söhbət arası Minanın tədqiqi barədə düşünür, ürəyimdə ona "Əbu Vəhəb"lə bağlı yazdığı mövzuya görə qibtə edirdim. Səna gülümsəyərək dedi: "Yadımdan çıxmamış bacına deyərəm ki, bu pis adəti – hər yerdə fit çalmağı tərgitmək fikrin yoxdur!" Bir daha fit çaldım və hər ikimiz gülüşdük. Dedim: "Hə vallah, o hətta mənim nəfəs dərməyimə də qarışır!"

Növbəti günlərdə Səna yenə həmin fikri qulağımın dibində tez-tez təkrar edir, laqeydliyimə etiraz edirdi. Hər birimizin cik-bikindən xəbərimiz olduğu halda ona neçə ay qabaq evimizdə baş verənlərə dair bir söz deməmişdim. Birgə gəzişərkən əlindəki qarğıdalı paketini mənə uzadıb, göz vuraraq dedi: "Ay dəli, heç bilirsən, mükafatı nə qədərdir? Haçandan bəri nout-buk almaq üçün narahat olan sən deyildin? Heç olmasa, özünə işlənmiş, ya da kreditlə təzəsini alarsan!" Ağzıma bir neçə qarğıdalı atıb dedim: "Mənim pulum da olsa, nout-buk almağa qoymazlar!" Yenidən ata-anamın ciddi xəbərdarlıqları, ən çoxu da, Minanın təngə gətirən sözləri beynimdə dolandı və ürəyim qüssə ilə doldu. Yanımdan sağa da, sola da keçəndə "fikrin dərsdə, kitabda olsun" – deyərək adamı bezdirirdilər. Kompyuter üzrə fəaliyyət göstərməyə həvəsim çox idi, elə-belə də yox. Yəni ciddi bir iş görmək istəyirdim; ya animasiya, ya da mübarizə-döyüş oyunları

sahəsinə girişim. Onlar isə məndən yalnız dərs tələb edirdilər. Odur ki, fikrim dərslərimdə idi və hərdən də gizlicə Minanın nout-bukunu açıb, məşğul olurdum.

Sənanın ardıcıl təkidi və mükafat məsələsi istər-istəməz nə isə bir şey yazıb, festivalda iştirak etməyi beynimə saldı. Bununla əlaqədar olaraq bir axşam yemək zamanı dilimi saxlaya bilməyib dedim: "Şagirdlər üçün festival təşkil olunub. Əgər qalib gəlsəm, mükafatı ilə özümə ürəyim istəyən hər nəyi ala bilərəm?" Mina o dəqiqə qaşığını boşqabına qoyaraq kinayə ilə belə cavab verdi:

– Dərs oxumağından məlumdur ki, hökmən qalib gələcəksən!

– Dərslərə heç bir dəxli yoxdur! Lazım gəlsə, qalib də gələrəm, Mina xanım!

Atam ciddi baxışları ilə hər ikimizi süzərək dedi: "Yenə başladınız?! Anam da ardınca bizə belə təpindi: "Afərin, yaxşı böyük-kiçik qanırsınız və peşəniz döyüşkən xoruz kimi həmişə didişməkdir!" Mina başını aşağı salaraq yeməyə başladı və mən də ata-anamın üzünə baxaraq cavab gözlədim. Atam dedi: "Bəli, nə istəsən, ala bilərsən!" Anam da başını tərpədərək razılığını bildirdi. Doğrusu, neçə vaxtdan sonra ürəkdən sevindim və ayağa qalxıb otağıma getdim. Dərhal telefonu götürüb Sənaya belə yazdım: "Mən də festivalda iştirak edəcəyəm!" Səna da yazdı: "Əla, xoşum gəldi! İndi ideyan nədir?" Yazdım: "Hələlik heç nə!" O da yazdı: "Hay-hay! Əlli gün qalıb ha!"

***

Siçanın işarəsi ilə Minanın "müsahibələrin mətnləri" adlandırdığı qovluğu seçib açdım. Müsahibələr siyahı ilə qeyd edilmişdi:

"Əbu Vəhəb" (Hüseyn Həmədani)

"Təvəllüdü"
"Uşaqlığı"
"Evlənmə tarixi"
"İnqilab və müharibə illəri"
"Suriyaya səfəri"

"Təvəllüdü" qovluğunu açıb baxaraq neçə sətir oxudum. Belə yazılmışdı: "Hüseyn Həmədani 1950-ci ildə Abadanda dünyaya gəlib. Valideynləri həmədanlıdırlar. Atası Abadanın neftayırma zavodunda işləyirmiş və Hüseyn dünyaya gəldikdən üç il sonra vəfat etmişdir..." Minanın nə üçün cənab Həmədanini Əbu Vəhəb adlandırdığını anlamadım. Elə fikirləşdim ki, yəqin, onun iki adı – Hüseyn və Əbu Vəhəb olub. Hələ neçə ay qabaq anamla nə haqdasa danışarkən onun dilindən həmin adın çıxdığını eşitmişdim. Söhbətlərini diqqətlə dinləmədiyim üçün nə barədə danışdıqlarını bilmədim, yəni mənə maraqlı da deyildi. Ona görə də yadımda da qalmadı. Sadəcə bildim ki, ədəbiyyat dosenti ona müəyyən nəşriyyat haqda məlumat verir və yazdığı şəxsiyyətin bioqrafiyası kitab formasında çap edilməlidir. Doğrusu, o vaxt bu xəbəri eşidəndə ona bir az paxıllığım tutdu. Fikirləşdim ki, artıq bacım tədqiqatçı sayılır və neçə gündən sonra adı müəllif kimi kitablarda yayılacaq, qürrələnərək hər gün yerli-yersiz işlərimə qarışacaq. Amma sonra əhəmiyyət verməyərək öz-özümə dedim ki, mənə nə.

Sənanın təkid etdiyi günlərdə zehnim qarışıq idi və ağlıma bir şey gəlmirdi. Hətta bir həftə qabağadək kitab həcmli mövzu barədə nə qədər fikirləşsəm də nəticəyə gələ bilmədim. Lakin keçən həftə Mina anama "Axır, çətinliklə də olsa, müsahibə yazılıb qurtardı! Amma haqqında bir kitab yaza bilsəm, əla olar!" – deyərkən

kitabla bağlı ağlıma bir şey batdı. Dodaqlarımı girdə şəklə salaraq fit çalıb, özüm də bu haqda bir şey yazmağı qərara aldım. Elə o anda yenə Minanın səsi gəldi: "Bu qız, deyəsən, fit çalmağı tərgidən deyil!"

Mina özü keçən il mənə hekayə yazmağı öyrətmişdi. Bilmirəm, yuxu görmüşdü, ya nə olmuşdusa, son vaxtlar aramız yaman yaxşılaşmışdı. Aramız səmimi olduğu müddətdə məni neçə qayda ilə də tanış elədi və mən də ona bir neçə hekayə yazdım. Onları oxuyandan sonra ağzı açıq qalaraq dedi:

– Əladır! Eynilə mənim kimi ədəbiyyat fakültəsini seçməlisən!

– Xeyr! Mənim kompyuter sahəsinə marağım var!

– Lazım deyil! Ədəbiyyatı seçsən, nailiyyətin daha çox olar!

Çiyinlərimi çəkərək dəftər-qələmimi götürüb dedim: "İndi ki, belədir, ümumiyyətlə, heç nə yazmıram!" O da təəccüblə "Əcəb, anlamaz uşaqdır! Niyə özündə irəliləyişi görmürsən!? Davam elə də!" – dedi. Mən isə sözünə əhəmiyyət verməyib otağıma getdim.

Mina günortadan sonra aramızda olan mübahisəni o dəqiqə ata-anama çatdırdı. Acığa mən də ertəsi gün səhər universitetə getməzdən qabaq gizlincə onun pul kisəsini çantasından götürüb komoduna qoydum. Yenidən haradan evədək geri qayıtmağının özü, əməlli-başlı, həngamə oldu. Hər halda, evə qayıdınca nout-bukundan bütöv müsahibələr qovluğunu flaş kartıma köçürə bildim. Əvvəlcə necə və haradan başlayaraq yazmağı bilmirdim və ümumiyyətlə, öhdəsindən gələ biləcəyimə tərəddüd edirdim. Bir həftə ərzində dəfələrlə haqqında götür-qoy elədim. Bəlkə yüz dəfə internetdə bioqrafiya mövzusu ilə bağlı axtarış apardım və nümunə olaraq çox cavan bir

şəxsin yazdığı mətni də oxudum. Bununla belə, hələ də cürət edə bilmirdim, sanki dünyanın ən ağır işi üzərimə düşmüşdü və yerinə yetirməyə çıxış yolu axtarırdım. Hərdən Minanın yazdığı müsahibələrdən gizlicə istifadə məni təşvişə salsa da, sonra yenə heç nə olmayacağını fikirləşərək məsələni unudurdum. Yəni deyirdim ki, şagirdlərə aid festivaldır və uzağı neçə vaxtdan sonra başa çatacaq və Mina və başqasının da xəbəri olan deyil, mən də mükafatı əldə edib nout-bukumu alacağam və... Nə isə, bu fikirləri beynimdə dolandıraraq özümə təskinlik verirdim.

Qəti qərara gələndən sonra paltarlarımı geyindim və ayağıma da Minanın başmaqlarını keçirib eyvanın sürahisindən sürüşərək aşağı endim. Evimizdən "internet-cafe"yə məsafə çox deyildi. Anam işdən qayıdınca müsahibələri çap etdirib, işin gedişatı ilə tanış olmalı idim.

# İkinci fəsil

Ürəyim partlayırdı. Səhər ata-anam işə və bacım da universitetə gedəndən sonra dəftər-qələm götürüb yazmağa başladım. Ağlıma bir şey gəlmirdi və haradan başlayacağımı bilmirdim. Hətta şəxsiyyətin adı və onun "Əbu Vəhəb", "Hüseyn", yaxud "Cənab Həmədani" seçimi barədə filan qədər götür-qoy elədim. Axır, qərara gəldim ki, bioqrafiyasını uşaqlıq dövründən başladığım üçün hər bir adı müxtəlif dövrlərdə qeyd etməyin eybi yoxdur. Beləcə, neçə saat yazıb-pozaraq, yaxud bəzən də vərəqi cırıb ataraq uşaqlıq dövrünü təsəvvür eləməyə çalışdım: "Məncə insanın hələ kiçik yaşlarından böyüklərin arasına qarışmağı çox çətin məsələdir. Hüseyn Həmədani elə uşaqlıq illərindən böyüklərin arasına qarışır və birinci sinifdən Həmədanın bazarında işləməyə məcbur olur. Səbəbi də 1953-cü ildə üç yaşında atasını itirməsi idi. O zaman onun özündən böyük iki bacısı və bir kiçik qardaşı vardı. Atasının vəfatından sonra onlar ailəvi Abadandan Həmədana köçərək orada yaşamalı olurlar. Odur ki, uşaqlıq illərindən məsuliyyət hissi duyaraq anasına köməyi və bacı-qardaşlarına qayğını öz üzərinə götürür və beləcə, böyüklərin arasına qatılır..." Zehnimdə birinci sinif şagirdini təsəvvür edərkən birdən telefonum cingildəməyə başladı. Zamanı bir saat qabağa təyin eləmişdim ki, vaxtında məktəbə gedə bilim. Müsahibələrin arasından uşaqlığına dair neçə səhifəni götürüb çantama qoydum və qalanlarını da çarpayının altına yeridib gizlətdim. Sonra fikirli-fikirli mətbəxə girdim. Anam həmişəki kimi mənim üçün qazın üzərinə bir qazança xörək qoymuşdu. Zehnim

onun uşaqlıq illərinə tamamilə qərq olduğundan heç bilmədim nə yedim.

***

Səna ilə birlikdə məktəbin həyətindəki alaçıqda oturub, söhbətə başladıq. İlk paraqrafları ona oxuyandan sonra dedi: "Gözəl yazmısan! Maraqlıdır, özüm də onun sonrakı həyatını bilmək istərdim!" Fit çalaraq dedim: "Bu dastanı yazınca əməlli-başlı canım çıxacaq! Bu gün bu neçə sətri yazmaq üçün özümü öldürmüşəm!" O da çiyinlərini çəkərək "Daha başlamısan əsər yazmağa! Mükafatı da ki, ..." – deyə güldü.

Mətnləri araşdırdıqca fikirləşib yazaraq ikinci zəngədək alaçıqdan tərpənmədim. Bu gün idman müəllimimiz gəlməmişdi. Uşaqlar özləri şöbədən top alıb, həyətdə oynayırdılar. Səna da məni "Gəl, sən də oyna!" – deyə çağırarkən dedim: "Vaxtım yoxdur. İndi ki, başlamışam, qoy yazım." O da sözümdən sonra cəld voleybol torunun yanındakı uşaqlara qoşuldu.

Qələmi əlimə alıb, belə yazdım: "Doğrusu, beş yaşlı uşağın əttarlıq mağazasında şagird kimi işə başlaması mənə çox qəribə idi. Bunu bacım Minanın danışıqları, yəni müsahibələri əsasında yazıram. Mina da belə şeylərdə çox sayıq və diqqətcil adamdır. Əgər müsahibələrdə Hüseyn Həmədaninin beş yaşında əttarlıq dükanında şagird olmağını və gündə bir tümən qazanaraq gətirib anasına verməyini, yaxud sonra pinəçi yanında və daha sonra mexanik yanında şagirdlik eləməyini deyirsə, deməli, eyni həqiqətdir." Müsahibə səhifələrini ardıcıl oxuduqca adamların uşaqlıq həyatının bir-birindən nə qədər fərqli olduğunu düşünür, Hüseyn Həmədaninin uşaqlıq dövrünün necə çətin və məsuliyyətli keçirdiyinə təəccüb edirdim. Hələ indi anamın bizə bu vaxtadək min dəfə

"Allah haqqı, sizlər naz-nemət içində böyüyürsünüz! Nə bilirsiniz, çətinlik nə olan şeydir?!" – dediyi sözləri anlamağa başlayırdım. Gözlərimi yumub, fikirlərə daldım: "Deməli, bu uşaq beş yaşından əttarlıqda şagirdliyə başlayır, məktəbin ilk illərindən bağda bel belləyir, çöldən çır-çırpı yığır, ağır işlərə qatlaşaraq tər tökür... Məsələn, anasının tapşırığı ilə səhərin ala-toranlığında gedib, qonşunun bağından suyu öz bağlarına tərəf döndərməyi hadisəsi məni yaman sarsıtdı. Balaca Hüseyn ay işığı altında suyu döndərərkən birdən arx boyunca sıralanan ağacların kənarından kölgələrin tərpəşdiyini müşahidə edir. Uşaq qorxaraq elə fikirləşir ki, ağacların dalında div və əcinnələr gizlənib (bəzən mənim də gecələr zombi və xortdandan qorxduğum kimi). Kölgələr tərpəşdikcə uşağın ürəyi həyəcandan tez-tez döyünməyə başlayır və daha yerində gözləməyib qaçır. Amma bir az sonra nə isə fikirləşərək dərhal dayanır. Yanındakı ağaclardan birinin gövdəsinə söykənərək salavat deməyə başlayır. Get-gedə təskinlik tapır, div və əcinnələr də zehnindən yox olub gedir. Sonra yavaş-yavaş evə qayıdır və başına gələnləri anasına danışaraq deyir ki, div və əcinnə yalandır!" Birdən çiyinlərimdə iki əlin istiliyini hiss edib, dik atıldım. Səna dedi: "Ay qız, nə olub, nədən qorxdun?!" Gülərək dedim: "Divdən!" Təəccüblə soruşdu: "Başına hava gəlib?! Gözlərini niyə yummuşdun?" Uşaqlıq illərinə dair səhifələri göstərərək dedim: "Bu dövrü necə yazmaq barədə düşünürdüm."

***

Axşam neçə loğma yeyəndən sonra özümü tox hiss elədim. Mənə elə gəldi ki, səhərdən indiyədək bir ömür qədər fikirləşmişəm. Öz əlimdə deyildi və həmişə belə idim. Zehnimə hər hansı bir fikir girəndə məni yemək və

yuxudan ayırır, bir nəticəyə gəlməyincə əl çəkmirdi. Çiyinlərim sanki ağır yükün altına düşüb qırılırdı. Biganə halda süfrə başından qalxıb, otağıma getdim. Qapını bağladım və güzgünün qabağında dayanaraq özümdən soruşdum: "Ay qız, niyə çəkindən ağır yükün altına girirsən?" Amma ani olaraq oxuduğum bütün müsahibələr zehnimdən keçdi və qərara gəldim ki, mütləq bu gecə uşaqlıq dövrünü yazıb, başa vurmalıyam. Bu fikirlə gəlib, yazı stolunun arxasında əyləşdim. Bir neçə səhifəni qabağıma qoyub, oxumağa başladım. Bir qədər sonra anladım ki, məşhur güləşçi Qulamrza Təxti Hüseynin güləş müəllimi olub. Onda on iki yaşından (1962-ci il) güləşə güclü maraq yaranır. Bu maraq o zaman Həmədanda gedən azad güləş yarışlarına tamaşadan baş qaldırır və üç il sonra özü də bu idman növünü seçir. Sonralar Təxtiyə vurulur və demək olar onun şagirdinə çevrilir.

İnsanlarda belə bir hissin olduğunu Minadan öyrənmişdim. Aramızda münasibətimiz yaxşılaşdığı zaman mənə demişdi: "İnsanlar həddən artıq birinə vurularkən onu nöqsansız təsəvvür edərək bəzən həyatda özlərinə ülgü ola biləcəyini fikirləşir, yaxud fikri-zikri yalnız onun yanında olur və ya onun barəsində fikirləşdikdə rahatlıq tapırlar. Belə halda insanın həmin şəxsi zehnində və ürəyində təmsil etməyinin eybi yoxdur. Məsələn, mənim üçün bir rəssam, yaxud bir yazıçı və ya hətta bir şəhid ideal ola bilər." O vaxt bu sözləri dinləyərkən çiyinlərimi çəkmişdimsə, amma indi həmin fikrin elə də əbəs olmadığını qavrayırdım. Elə buradan belə nəticəyə gəldim ki, Qulamrza Təxti də Hüseynin idman ustası olub. Qələmin başını dişlərimlə sıxaraq fikrə daldım və səhərdən indiyədək bioqrafiyasını yazmağı

qərara aldığım şəxsin bir zaman mənim üçün də təcrübi olaraq nümunə və ideala çevriləcəyi barədə düşündüm.

Nə isə, yazmağa başladım: "Onun güləşə hədsiz həvəsi cavanlıq illərinədək davam edir. İlk vaxtlar yaxın dostlarından biri ona təlim verir və sonralar Həmədandan Tehrana köçəndən sonra da güləşi kənara qoymur və 57 kq çəkidə "Duxaniyyat" klubuna üzv olur. O, həmin illərdə dərs oxumaqla yanaşı həm işləyir, həm də güləşlə məşğul olur."

Müsahibələrin növbəti səhifəsi "15 Xordad hadisəsi, 1963" ilə başlayırdı. Telefonumu götürüb, başlığı olduğu kimi yazdım və internetdə axtarmağa başladım: "1963-cü il 15 xordad aksiyaları; Qum, Tehran və Vəramin şəhərlərində qarşıdurmalar; Pəhləvi rejiminə qarşı mitinqlər; Xalqla dövlət məmurları arasında qarşıdurmalar; Hadisələrdə ölənlərlə yaralananların sayı məlum deyil..." və s. başlıqları diqqətimi cəlb etdi. Həmin dövrdə Hüseynin 13 yaşı vardı və hələ Həmədandan köçməmişdilər. O da bir çoxları kimi ətrafında baş verən hadisələrə biganə deyildi. Yeri gəlmişkən yeniyetmə uşaqda öz qonşularının oğlunun Tehranda 15 xordadda qətlə yetirildiyi və cəsədinin paytaxtdan Həmədana köçürüldüyü gündən suallar yaranmağa başlayır. Məsələn, anası və dayısından onun niyə öldüyü, kimlər tərəfindən öldürüldüyü, niyə dəfn mərasiminə icazə verilmədiyi barədə cürbəcür suallar soruşur və onlar da uşağın maraqlandığı məsələlərə "Tehran və Qum şəhərləri qarışıb, uşaqlara aid deyil, ..." və s. həmişəki ibtidai cavablar verərək başını qatırlar. Bu hadisələr sonralar Hüseyn Həmədaninin öz dilindən nəql edilib.

Yazdıqca niyə böyüklərin çox vaxt hadisələrin biz uşaqlara aid olmadığını, adətən, onların düzgün qərara

gəldikləri və fikirləşdikləri barədə düşünürdüm. Dəftər-qələmi çantama qoydum. İşığı söndürüb, çarpayıma uzandım. Telefonumu götürüb, "vatsap"ı açdım. Qrupumuzda şagirdlərdən biri mənə neçə zonbi və qaniçən şəkli göndərmişdi. Mən də ürəyimdə onu pislədim. Onların qorxunc əksi gözümün qabağına gəldikcə qorxur, yuxum qaçırdı. Birdən yadıma Hüseynin əkin sahəsində gözünə əcinnə göründüyü hadisə düşdü. Bir daha Hüseynin təkbaşına ala-toranlıqda bağda keçirdiyi vəziyyəti, ağacın gövdəsinə söykənərək salavat çevirdiyi halı təsəvvürümdə canlandırdım. Nəfəsimi ötürərək adyalı başıma çəkib, salavat deməyə başladım. İçimdə mən də onun kimi qorxuma qələbə çalmaq üçün onlara "Siz puç və sırf xəyaldan başqa bir şey deyilsiniz!" – deməyə çalışdım.

***

Səhərdən günortayadək hər şeyi unudaraq eyvanın pillələrində oturub, yazmağa məşğul idim. İctimaiyyət dərsində müəllimə cavab verə bilmədiyim vaxt ürəyimdə özümdən soruşdum: "Bəs, onda Hüseyn necə eyni zamanda bu qədər işi görə bilirmiş?!" Çünki onun uşaqlıq və cavanlığı təhsil və işlə keçirmiş, dünyagörüşü genişləndikcə "İrşad mədəni mərkəzi"nin iclas və yığıncaqlarında iştirak edirmiş. Həmin mərkəzdə doktor Şəriəti, doktor Müfəttih kimi şəxsiyyətlərin fikirləri ilə tanış olur, görüş və yığıncaqlar paytaxtdan kənar şəhərlərdə təşkil olunduqda belə orada iştirakı etməyə çalışırmış. Həmçinin o illərdə Hüseyn təcrübi fənlər üzrə gecə kursunda təhsilini davam etdirirmiş. Bunları nəzərə aldıqca daim işləməyin ağır olduğunu, neçə nəfərin dolanışığının insanın üzərinə düşdüyünü qavramağa

çalışırdım. Eynilə atam kimi, əlbəttə, heç kim atanın yerini verə bilməz.

Müsahibələrin birində oxuyurdum ki, Hüseyn yaxşı-pisi anlayandan və bir qədər bərkə-boşa düşən zamandan artıq neçə nəfərin həyatının onun üzərinə düşdüyünü hiss edir. Uşaqlığı, yeniyetməliyi və gəncliyi təhsil, iş, idman və müəyyən məsuliyyətlərlə keçir. Ona görə də üzərinə düşən iş və vəzifələrdən əhəmiyyətli olanlarını seçməyə məcbur olur. Çox güman ki, 1971-ci ildə məktəbi başa vurmamış əsgərliyə getməyi də həmin məsələ ilə əlaqədardır. O, iki il Şirazda əsgərlik xidmətindən sonra yenidən Tehrana qayıdır və təhsilini davam etdirərək attestatını alır. Ondan sonra dörd il (1977) Tehranda qalır və bir daha ailəliklə Həmədana qayıdır. Səhifələri vərəqləyərək onun yenidən geri qayıtmağının səbəbini anladım. Deməli, anası uşaqlıqdan onun öz qardaşı qızı Pərvanə ilə evlənməyini nəzərə aldığı üçün bir gün Tehrandan Həmədana – onlara qonaq gedərək qardaşına belə deyir: "Oğlum Hüseyn qayğıkeş, halal-haram bilən uşaqdır, gecə-gündüz işləyir. Pərvanəyə elçiliyə gəlmişəm və onu oğluma almaq istəyirəm!" Ardını oxuduqca anladım ki, bibi oğlu ilə dayı qızı elə yeniyetməlik dövründən bir-birinə vurulmuş və evlənənədək o haqda söz açmamışlar. Pərvanənin anası da onlara neçə varlı elçi gəlməsinə baxmayaraq Hüseyni iman, əqidə və ədəb-ərkanına görə özlərinə kürəkən seçir. Nəhayət, iki ailə razılığa gələndən sonra Hüseynin anası Pərvanənin barmağına üzük taxır. Neçə vaxt sonra Hüseyn özü nişanlısına daxili duyğuları haqda belə deyir: "Mən elə bir yolu seçmişəm ki, səadətim, hətta ölümüm ondadır. Doğrusu, çox çətin yoldur. Bundan xəbərin olduğu halda mənimlə yaşamağa hazırsanmı?" O zaman Pərvanə

Hüseynin məqsədini anlamasa da razı olduğunu bildirir; necə ki, mən indi o haldayam.

Beləcə, bir müddətdən sonra Hüseyngil ailəvi Tehrandan Həmədana köçürlər. O zaman Hüseynin 27, Pərvanənin isə 18 yaşı vardı. Onlar evlənəndən sonra Həmədanda ayrıca ev kirayə edərək yeni həyata başlayırlar.

Gözlərimi bir anlıq yumub, 27 yaşlı gənci təsəvvür elədim. Yazdığım son cümlələri nəzərdən keçirib, adını sadəcə "Hüseyn" yazmağa çəkindim. O, artıq əttarlıq mağazasında işləyən 5-6 yaşlı qoçaq uşaq yox, 27 yaşlı bir kişi və ailə başçısı sayılırdı. Amma gözlərim hələ də "Əbu-Vəhəb" kəlməsini axtarır, haqqında dəqiq məlumat əldə etmək istəyirdim. Birdən gözüm maraqlı bir mətləbə toxundu və gülümsəyərək çəhrayı flomasterlə üzərini nişanlamalı oldum. Sözlər Pərvanənin öz dilindən qeyd edilirdi: "Birinci dəfə bişirmək istədiyim xörək toyuq-plov idi. Düzü, o vaxtadək evdə biş-düşlə məşğul olmamışdım. Hüseyn işdən evə qayıdandan sonra bir az əl-ayağa düşdüm və qızartmağa qoyduğum toyuğu tamam unutdum. İlk xörəyi yandırdığıma görə yaman utandım. Hüseyn isə heç nə olmamış kimi xörəyi iştahla yeyərək dedi: Pərvanə, indiyədək belə dadlı yemək yeməmişdim!" Doğrusu, onun rəftarı mənim də xoşuma gəldi və bir anlıq yadıma Minanın keçən il yayda birinci dəfə yemək bişirmək istədiyi hadisə düşdü. Həmin gün səhər aramızda mübahisə baş vermişdi. Xörəyi ocağa qoyandan sonra altını azaldıb, not-buku ilə məşğul olmağa başladı. Mən də yavaşca mətbəxə girib, qazın altını bir az çoxaltdım və yarım saat sonra tüstü bütün evi götürdü. Ürəyimdən tikan çıxdı və nə qədər güldüm. Amma atamla anam işdən qayıdandan sonra Mina aləmi bir-birinə vurdu və anam da

məni çoxlu danladı. Mən də dedim: "Təqsir özündədir, bişirə bilmirsə, mənə nə!" Ardını belə yazmağa başladım:

İlk illərdə Hüseyn – cənab Həmədani qum-çınqıl şirkətində işləməyə başlayır. Bu isə onun həyat yoldaşına söylədiyi ömür və güzəranı sıxıntıya salan peşə deyildi. Pərvanə isə bunu yoldaşının içi elanlar və kasetlə dolu çantasını aparıb-gətirən zamandan anlamağa başlayır. Belə ki, yoldaşı işdən kənar əlavə fəaliyyətlə – imam Xomeyninin bəyanatlarını yaymaqla məşğul idi. Həmin həyətdə onlardan başqa bir ailə də kirədə qalırdı. Pərvanə ilk dəfə onu dolu çanta ilə qarşılayarkən soruşur: "Bunlar nədir?" Yoldaşı deyir: "Kasetlərdir, üzünü köçürməliyəm." Pərvanə deyir: "Onda qonşular eşidər ki!" Həmədani də ona belə cavab verir: "Gecə, hamı yatandan sonra dinləyəcəyəm." O, elə də edir və gecə otağın bir guşəsində başına adyal atıb, səhərədək onları dinləyərək kağıza köçürür və ertəsi gün mətnləri yaxın dost-tanışlarına çatdırır.

Pərvanənin müsahibələrini oxuyub-yazdıqca onun ictimai mövqeyindən yayınmışdım. Mənə elə gəldi ki, cənab Həmədaninin həyat yoldaşını sadəcə adı ilə qeyd etməyim düz deyildir. Əgər Mina yazdıqlarımı oxusaydı, hökmən mənə "Ay qız, utanmırsan! Həmədaninin həyat yoldaşı sənin tay-tuşundur ki, onu Pərvanə adı ilə qeyd edirsən!?" – deyərək bərk qınayardı. Odur ki, əlimi çənəmin altına dayayaraq fikrə getdim və zehnimdən "cənab Həmədaninin yoldaşı", "Pərvanə xanım", "əziz Pərvanə"... və s. adları keçirməyə başladım.

# Üçüncü fəsil

İnsanların özlərinin adi, yaxud qeyri-adi həyatı seçməyi barədə düşünürdüm. Adi insanların hər şeyi – dərs oxumağı, işləməyi, güzəranı, ailə qurmağı da adi olur. Əlbəttə, özlərindən asılı olan işlərdə; adətən, həyatları cüzi problemlərlə, yaxud da problemsiz keçir, yəni ürəkləri belə istəyir. Amma nə vaxtsa qeyri-adi olmağı qərara alsan, onda bir zaman özün, ya da ailəliklə qeyri-adiliyin nə qədər çətin olduğu barədə götür-qoy etməli olacaqsınız. Mənə elə gəlirdi ki, cənab Həmədani qeyri-adi olmağı özü seçib. Məsələn, belələri əlindən bir iş gəldiyini hiss etdikləri zaman onun fərqinə varmadan hökmən onu görməyə çalışır. Bu iş insanın öz ailəsi, dost-tanışı, vətəni, hətta ölkəsi və ya dünyanın hər hansı bir xalqı ilə bağlı ola bilər.

Filan qədər qabağa getdiyimə görə özümdən razı idim. Çünki dünən gecə həvəsim çox artmışdı və yatmazdan qabaq neçə yüz səhifəni ötəri gözdən keçirərək hətta son müsahibələrə də nəzər salmışdım; cənab Həmədaninin Afrikaya, Rusiyaya, Suriyaya və s. səfərləri...

Qeyd etdiyim kimi, cənab Həmədani ətrafında baş verən hadisələrə laqeyd yanaşmayan insanlardan idi. Məsələn, inqilab ərəfəsi günlərində inqilabçı qruplara qoşulur və şah rejiminə qarşı mübarizəyə başlayır, sonralar əksər vaxtları cəbhə meydanlarında keçir. O, imam Xomeyninin vətənə gəlişi xəbərini eşidən andan özünü Həmədandan Tehrana yetirir və İmamın xalq tərəfindən möhtəşəm qarşılama mərasimində yaxından iştirak edir. Bir çoxları kimi o da aeroportdan "Behişti-Zəhra"ya kimi yollara gül düzən dəstələrə qoşulur və izdihamlarda

ayaqqabılarını itirir və mərasimin sonunadək ayaqyalın tədbirlərin təşkilində yorulmadan çalışır. Nəhayət, üç gündən sonra ayaqları zədəli və qabarlı halda Həmədana qayıdır və yoldaşına gördüyü maraqlı hadisələri məlumat verir...

***

Cənab Həmədani inqilabdan əvvəl mübarizələrə qoşulur və inqilabçı qüvvələrin fəal üzvünə çevrilir. O da xalqla bərabər yenilməz mübarizəyə davam edir və nəhayət, inqilab qələbə çalır. 1979-cu il fevral ayının 10-da jandarmeriyanın idarələrinə basqınlarda, onları ələ keçirən qruplarda onun da adı və rolu xüsusi olaraq qeyd edilir. O, 1980-cı ildə "İslam İnqilabı Keşikçilər korpusu" təsis edildiyi zamandan onun sıravi üzvü olaraq fəaliyyətə başlayır.

Fikirləşirdim ki, mübarizə yolunun təhlükə və çətinliklərini anladığı halda cənab Həmədani kimi şəxsin – əqidəsinə əsasən – həmin yolu seçməyi təbii idi. Qələmin ucu ağzımda gözlərimi divardakı "dart"ın nişangahına zilləyərək beş dəqiqəyədək fikrə getdim. Özümdən soruşdum ki, insanın adi və asudə yaşayışı seçməyi yaxşıdır, yoxsa qeyri-adi olub, əqidə və hədəfi uğrunda hər bir çətinliyə sinə gərməyi?

Birdən Minanın otağıma girdiyini görüb, tələm-tələsik dəftəri örtərək özümü yığışdırdım. Bununla belə, ondan insanın adi, ya qeyri-adi olmağı barədə soruşmaq istədim. Şalını çarpayımın üstündən götürüb (ona icazəsiz əl vurduğum üçün), başını sağa-sola yelləyərək çölə çıxdı. Sonra da "Mən getdim universitetə! Başın telefona qarışmasın və məktəb də yaddan çıxmasın!" – deyə səsi gəldi. Səsinin tonundan yaman acığım gəldi. Halbuki səhərdən indiyədək telefona əl vurmamışdım. "Dart"ın

birini götürüb nişangaha vızıldatdım və sonra da başımı stolun üstünə qoyub, gözlərimi yumdum. Hiss edirdim ki, bu yazı, o şəxsiyyətin sərgüzəşti, həmçinin festival mənim üçün mühüm məsələyə çevrilib. Oxuduğum yeni mətnlərdən ilham alaraq yenidən yazmağa başladım:

Sanki cənab Həmədaninin həyat yoldaşı da onunla bərabər belə həyatı seçməyə can atırmış. Hətta hamilə vəziyyətində Həmədanda yeni təsis edilən Korpusun qadınlar komitəsinin üzvü olur. İnqilabın əvvəllərində Kürdüstan vilayətində tez-tez iğtişaşlar baş verirdi və separatçılar o məntəqəni İrandan ayırmağa cəhd göstərirdilər. Cənab Həmədani də oraya yola düşən korpus dəstələrinin tərkibində olur. O, tezliklə övladının dünyaya gələcəyini bildiyi halda Kürdüstanda vəziyyət stabil hala düşməyincə geri qayıtmır. (Onun öz familiyası Şahkuhi idi.) Həmçinin müharibə başlayan zaman Həmədandan cəbhə bölgələrinə gedən qüvvələrə qoşulur və cəbhə komandirinin onu Həmədani çağırdığı gündən "Hüseyn Həmədani" adı ilə məşhurlaşır."

***

Mətnləri oxuduqca hadisələr film kimi gözlərimin önündən ötüb keçir, sanki televizor qarşısında dayanıb, veriliş izləyirdim. Məsələn, saat 14:00 rəsmi xəbərdə İraq "Bəəs" qoşunlarının ölkəmizin ərazilərinə təcavüzü, düşmən təyyarələrinin şəhərləri, o cümlədən, paytaxtı bombardman etməyi, binaların dağılması və əhalinin qırılması kimi hadisələri seyr edirdim. Demək, xalqımız belə rahat və qəfil müharibəyə məruz qalıbmış! Səhifələri vərəqləyərək o zaman cənab Həmədaninin nə etdiyini bilmək istədim:

Hüseyn Həmədani İraqın ölkəmizə hücumunu eşitdiyi zaman Həmədanda qala bilmir və dərhal korpusun bir

qrupu ilə lazımı silah-sursatla Kermanşah və sərhəd bölgələrinə yollanır. İraq ordusu sərhədləri pozaraq irəliləməyi həmin məntəqələrin əhalisini güclü qorxu və vahiməyə salır. Əhalinin çoxu traktor, avtobus, mikroavtobus, yük və s. şəxsi nəqliyyat vasitələri ilə şəhər və kəndləri tərk edərək təhlükəsiz nahiyələrə axışmağa başlayır.

Məncə, belə hadisələr həmişə şahidi olanların yaddaşında yaxşı qalır. Cənab Həmədaninin də o dövrə dair yoldaşına söylədiyi xatirələri həmin qəbildəndir. Mənə elə gəlirdi ki, əksər hallarda insanlar belə gözlənilməz hadisələrə hazır deyillər. Əslində, nəyə görə hazır olmalıdırlar və gecə-gündüz hansısa yadların onların torpağına top-tüfənglə təcavüzünü, ev-eşiklərinin dağıdılmasının intizarını çəkməlidirlər!? Atam demişkən, insana dünyada ən təhlükəsiz yer onun ev-eşiyidir! Fikirləşirdim ki, müharibə, həmçinin yadların qəfildən insanın şəhər və yurd-yuvalarına hücumu doğrudan da dəhşətlidir. Labüd, xalq da düşmənin təcavüzü zamanı eynilə mən və atam kimi fikirləşirdi və öz ev-eşiyində asudə olduğu halda qəfildən belə gözlənilməz hadisənin şahidi idilər və canlarını qorumaq üçün başlarını götürüb, qaçmaqdan başqa çarələri yox idi.

Müharibənin vurduğu zərbəni və xalqın düşdüyü ağır vəziyyəti yaxından müşahidə edən cənab Həmədaninin əhvalı çox pis idi. Sentyabr ayının 22-də müharibənin başladığı gün cəbhəyə yollanan Həmədani bir aydan sonra geri qayıdır. Payızın yavaş-yavaş özünü büruzə verən axşamüstü soyuq ərəfələri müharibə xəbərləri ilə bir az da cansıxıcı olurdu. O, həyat yoldaşı ilə anasına müharibənin ilk günləri haqda belə məlumat verir: "Sərhəd bölgələrinə yaxınlaşdıqca qaçqın düşən xalqın dağ və biyabanlara sarı

üz tutduğunun şahidi idik. Maşını olmayanların çoxu ev-eşiyini olduğu kimi qoyub, doğma yurdunu tərk edirdilər. Onların özləri və uşaqlarının ac-susuz gecənin qaranlıqlarında çöllərə səpələnməyi, düşmən qüvvələrinin onların malı və namusuna qarşı azğınlıqları olduqca ağır idi. Biz qəfil hücuma məruz qalmışdıq və onların qarşısını almağa lazımı təchizatımız yox idi. Onlar tanklarla irəli gəlir, biz isə avtomatla qarşılarını almağa çalışırdıq. Qəsr-Şirinə neçə tərəfdən hücumdan sonra şəhər onların əlinə keçir. Ondan sonra Sərpol-Zəhabı ələ keçirməyə çalışırlar. Biz isə Həmədandan gedən cəmi iyirmi-otuz nəfərlə oranı qorumalı idik. Düşmənin ağır texnika ilə tez bir zamanda şəhərin girişinə çatdığının şahidi olduq. İlkin qarşıdurmanın təsiri olmadı və gücümüz çatmadığı üçün şəhərə daxil oldular. Qabaqcadan şəhərin əhalisi oranı tərk edərək başqa məntəqələrə getmişdi. Demək olar, şəhərdə bizim qüvvələrdən başqası qalmamışdı; biz idik və düşmən tankları. Onlar şəhərin strateji nöqtələrində yerləşəndən sonra təzyiqlər çoxaldı. Tehrandan gələn korpus qüvvələri ilə birgə müqavimət göstərsək də itkiyə məruz qaldıq və şəhid verdik..."

İnternetdə axtarışdan sonra bildim ki, Sərpol-Zəhab Kermanşah vilayətinin şəhərlərindən sayılır. Yazmağa başladım:

Onlar Sərpol-Zəhaba çatanda şəhər tamamilə başqa hala düşmüşdü. Günorta çağı günəşin parlaq şöləlləri altında küçə və prospektlərdən keçdikcə ev və binaların divarlarının dəlik-dəlik olduğunu müşahidə edirdilər. Susuzluq və yolun yorğunluğu onları əldən salırdı. Həyət-bacaların qapıları açıq, əhalidən əsər-əlamət yox idi. Şəhərə qəribə sakitlik çökmüşdü. Bununla belə, heç kim kiminsə evinə girib, susuzluğunu yatırtmaq istəmirdi.

Nəhayət, istirahət üçün bir evin qarajına daxil oldular. Çoxdan idi ki, bir şey yeməmişdilər və hamı ac idi. Hərə bir tərəfdə əyləşib-uzanarkən Hüseyn də divara söykənərək ayaqlarını uzadır. Onlardan biri qarajın küncündən bir yeşik limonad və bir torba quru çörəyi çəkib, ortalığa gətirir. Hərə bir tərəfdən sürünərək gözlənilməz payın ətrafına yığışır. Onlar yeyib, qüvvət tapandan sonra cənab Həmədani cibindən kağız-qələm çıxarıb, belə yazır: "Əziz naməlum ev sahibi, sizdən xahiş edirik ki, burada istifadə edilən azuqənin pulunun ödənməsi üçün Həmədanda qeyd etdiyim adresə müraciət edin!"

Son sətirləri yazdıqca yadıma onun anasının elçilik zamanı "Hüseyn halal-haram bilən uşaqdır..." sözləri yadıma düşürdü.

Köməyə əlavə qüvvələr gəldikdən sonra düşmən qoşunları Sərpol-Zəhabdan çıxarılır və cənab Həmədani silahdaşları ilə Əlvənd çayı boyunca yerləşərək mövqe seçirlər. O, bir komandir kimi hər vəziyyətdə ətrafı nəzərdən keçirir, qüvvələri təhlükəyə düşərkən hamıdan əvvəl özü meydana atılırdı. Bunu mən onun öz silahdaşlarının dilindən nəql edildiyi müsahibələrdə oxuyurdum. Həmin ərəfədə Kermanşahın korpus qoşun komandirlərindən biri neçə nəfər onların yerləşdiyi cəbhəyə baş çəkir və düşmənin mövqeyi və vəziyyəti ilə tanış olmaq üçün cəbhə xəttini keçirlər. Onlar müəyyən qədər irəlilədikdən sonra birdən partlayış səsi eşidilir və qarşıdakı tankın kənarında qurulan tələ nəticəsində canlarını əldən verirlər. Arxadan hadisəni müşahidə edən əsgərlərdən neçəsi onları geri gətirmək üçün tez irəli yollanır. Xəbər cənab Həmədaniyə çatanda, o da vaxtı itirmədən maşınla həmin səmtə hərəkət edir. Onlar

Həmədaninin xüsusi çevikliyi və məharəti nəticəsində cəsədləri maşına yükləyib, hadisə yerini tərk edə bilirlər. Maşın hər tərəfdən güllə atəşinə məruz qalsa da onun ziqzaqvarı sürücülüyü və hərəkəti ilə təhlükədən yayına bilmirlər.

Baş verən hadisəni onun öz əsgərlərinin dilindən oxuyarkən indiyədək haqqında düşünmədiyim məsələlər zehnimdən keçirdi. Məsələn, təhlükə olduğu halda o haqda düşünmədən dostlara görə meydana girmək, yaxud neçə an qabaq əl verib görüşdüyün və ya qucaqlaşdığın yaxın dostundan gözünün qabağında tikə-tikə olduğunu görüb ayrılmaq və öz əllərinlə parçalanmış cəsədini yığıb geri gətirmək... Bunları oxuyub, fikirləşdikcə yazmağın özü belə mənə nə qədər çətin idi. Ürəyim sıxıldıqca belə hadisələrə toxunmadan üzərindən ötüb keçmək istəyirdim. Müharibənin gözlənilməz hadisələri deyirdi ki, asayişlə təlatüm, yaxud həyatla ölüm arasında fasilə necə də qısadır. Odur ki, səhifələrin neçəsini vərəqləyərək irəli keçdim və qələmi kənara qoyub, dəftəri örtdüm.

Halım bir təhər olmuşdu. Ürəkdən istəyirdim ki, kaş, Səna yanımda olaydı. Başımı qaldırıb saata baxdım. Məktəbə getməyə bir saat qalırdı. Amma o vaxtadək dözə bilməzdim və bir qədər yüngülləşmək üçün kiminləsə danışmaq istəyirdim. Ona görə də anama zəng edib, Sənanın yanına getmək üçün icazə istədim. Bir qədər dil-ağız edəndən sonra icazə verdi.

Vaxtı itirmədən Sənagilə getdim. Onunla pilləkənlərdə görüşərkən özümdən asılı olmayaraq qucaqladım və onu nə qədər çox sevdiyimi hiss etdim. Elə pilləkəndə əyləşərək ona da müharibənin acı hadisələrini, itkilərini, dostlar arasında həyat və ölümün nə qədər qısa olduğunu danışdım. Dərindən nəfəs alaraq çantamdan

müsahibələrdən neçəsini çıxarıb, oxumağa başladım. Söhbət Hüseyn Həmədani və dostu Mahmud Şahbazi ilə bağlı əməliyyatda baş verən hadisə barədə idi: "Hüseynlə Mahmud yaxın dost idilər. Mahmud Həmədan korpus qoşunlarının komandiri idi. Onların tanışlığı imam Xomeyninin "Behişti-Zəhra" xiyabanında çıxış etdiyi günə qayıdır və o zamandan dost olurlar. Günlərin bir günü onlar bir dəstə ilə kəşfiyyat məqsədi ilə Əlvənd çayı kənarındakı xaraba qalan kəndlərdən birinə gedirlər. Qüvvələr kəndə daxil olub, müəyyən məntəqədə yerləşəndən sonra durbinlə ətrafı müşahidə etməyə başlayırlar. Hər biri düşmənin diqqətini cəlb etməmək üçün ayrıca irəliləməli idi. Birinci Mahmud Şahbazi qabağa keçərək irəli gedir. Amma bir qədər sonra onun silahı çiynində dəli kimi geri qaçdığını görürlər. Hamı elə güman edir ki, düşmən onların gəlişindən xəbərdar olub və mühasirəyə düşmə ehtimalı var. Odur ki, hərə bir tərəfə üz tutub, qaçmağa başlayır. Lakin geri dönüb, baxarkən onun öz üst-başından nələri isə qovduğunu müşahidə edirlər. Yenidən hərə bir tərəfdən onun ətrafına toplaşarkən hadisənin nə yerdə olduğunu anlayırlar. Məlum olur ki, yolda bir ağac gövdəsindəki arı pətəyinin bir qismini qoparıb götürərkən arılar canına daraşıbmış və o da onların əlindən yaxa qurtarmaq üçün pətək əlində dəli kimi qaçırmış. Hamı onun bu hərəkətinə bərk əsəbiləşir və Hüseyn Həmədani də belə deyir: "Qardaşım, biz bura kəşfiyyata gəlmişik! Bu nə hərəkətdir, axı?! Nə oyundur çıxarırsan?!" Mahmud Şahbazi isə heç nə demədən gülməyə başlayır və o qədər gülür ki, axır, hamının gülüşünə səbəb olur."

Hadisəni oxuduqca hər ikimizi gülmək tutdu. Səna dedi: "Məncə, bu macəranı həmin fəslin sonunda qeyd

etsən, əla olar! Doğrudan da məzəli hadisədir!" Mənə elə gəldi ki, Sənanın da ürəyi mənim kimi acı hadisələrə qarşı həssasdır və o da istəyir ki, fəslin sonu maraqlı macəra ilə bitsin. Amma özüm yaxşı bilirdim ki, Həmədani və silahdaşlarının başına gələn hadisələr bu bir macəra ilə – hətta neçə anlıq gülüşə səbəb olsa da – belə rahat şirin olan deyil.

Səna pillələri yuxarı qalxaraq dedi: "Artıq gecdir. Gedib çantamı gətirim, yola düşək." Mən isə o anda müharibənin acı və şirin xatirələrinə varmadan heç vaxt müharibənin olmadığını arzulayırdım.

***

Mən hələ də cənab Hüseynin təhlükəsiz və dinc evini necə tərk edib, Dokuhə kimi yerə getdiyini anlamırdım! Dokuhə döyüşçülərin hazırlığı üçün Əndimeşk şəhərinin yaxınlığında lazımı şəraiti olmayan bir kazarma idi. Həmədani orada mühüm işlərlə məşğul idi. Hətta müharibə və ya əməliyyatda olsanız belə keçinmək üçün münasib yer lazımdır, elə-belə olmaz. Hələ bir fikirləşin ki, yaşayış yerinizin tualeti də yoxdur! Dodaqlarımı qönçə kimi büzüb, fit çaldım:

– Tualetsiz şey olar?!

Dokuhə kazarması və onun çoxmərtəbəli binaları haqda daha çox bilmək üçün müsahibə vərəqlərinə yenidən baxdım. Ora Həmədani və dostlarının yaşayış yerinə çevrilmişdi. Onlar neçəmərtəbəli yarımçıq binaların döşəmələri hamar olmayan otaqlarında sakin idilər. Həmədani yorğanlardan birini götürüb yerə atır. Bir qədər sonra soyuq yorğandan keçir. Yerdən və şüşəsiz pəncərələrdən soyuq gəlirdi. Havaların soyuq keçməsi işləri çətinləşdirirdi. Pəncərənin yanında oturan döyüşçülərdən biri deyir: "Soyuqla nə edək?" Cənab

Həmədani onun ağzından çıxan buxara baxaraq başını bulayır və sonra da hələ yarımçıq qalan kərpic pilləkənlərlə aşağı enir. Gözünə kazarmanın ətrafında qum və kərpic dəyir. Bir çuval tapıb içini qumla doldurur və çiyninə atıb, içəri gətirir. Onu otağın qapısı qabağında yerə qoyaraq ədyalın üstündə əyləşən döyüşçülərə deyir: "Qalxın, ədyalları bir tərəfə yığın! Altına qum tökmək lazımdır. Belə etsək, altımız nisbətən isti olar." Onlar daha neçə kisə qum gətirib, otaqların döşəməsinə tökürlər ki, həm yeri yumşaq, həm də isti olsun. Hər halda orada istənilən şəraiti düzəltmək asan deyildi. Xuzistanın soyuq qış gecələrində qapı-çərçivəsi, qızdırıcısı olmayan, inşası yarımçıq qalan binalarda neçə keçinmək olar?!

Oxudum ki, nə qızdırıcı var imiş, nə də yanacaq. Nə olduğunu bilmədiyim bir neçə lampaları olub. Bu haqda "google"da belə yazdım: "Valor lampa" İzahında yazılmışdı: Valor lampası həm yemək bişirmək və həm də qızdırmaq üçün istifadə olunan neft yandıran çıraq lampasının bir növüdür.

Yaxşı, bu lampa da neft istəyirdi. O vaxtlar ölkənin neft və yanacaqla təmini talon sistemi üzrə idi. Dezful korpusuna gedib neftin kuponunu alıb, neft paylanan yerə aparmalı idilər. Hər üç dəfə gedəndə bir dəfə neft alırdılar.

Müsahibə qəzetlərində oxuduğum bəzi şeyləri təsəvvür edə bilmirdim. Yəni nə qədər gözümü yumsam da, onları görə bilmirdim; çünki onlar mənə qəribə gəlirdi. Yaxşı, insan o soyuqda yanacaqsız yaşaya bilərmi?! Hələ işıq da yox idi. Lampa kimi yandırmağa bir şey də yox idi! Cənab Həmədani sonralar oradakı həyatla bağlı xatirələrini danışıb. Müsahibələrin birində oxudum: “İlk neçə gecəni mağara sakinləri kimi qaranlıqda keçirdik və hava qaralan kimi yatırdıq. Neçə gündən sonra uşaqlar şəhərdən bir

qədər şam aldılar və növbəti gecələrdə onları yandırdıq." Bununla belə, yarımçıq tikili və hər yeri açıq olan binada külək dəlmə-deşiklərdən girib, şamları söndürürdü. Odur ki, şamlara da keşik çəkirdilər, əllərində kibrit şamların kənarında oturur, sönən kimi dərhal yandırırdılar.

Məncə, bunların hamısına bir təhər dözmək olardı, amma tualetin olmamağına isə qətiyyən! Məsələn, kimsə gecə yarısı tualet üçün nə qədər yol getməli, binalardan aralanmalı və s. etməli idi...

Cənab Həmədani və dostu komandir İbrahim Himmət bu vəziyyəti gördükdə, özləri işə əl atırlar. Hacı Himmət hamıdan qabaq hərbi formasını çıxarıb, iş paltarını geyinir. Sonra beli götürür və tualet hazırlamaq üçün müəyyən yeri qazmağa başlayır. Cənab Həmədani də eyni işi görür və qalan döyüşçülər də işə başlayırlar. Onlar qışın soyuğunda neçə gün ardıcıl işləyərək səhra tualeti tikirlər.

Belə şeyləri təsəvvür etmək mənim üçün çətin idi və başa düşə bilmirdim. Halbuki hər birinin "ən təhlükəsiz yer" sayılan ev-eşiyi vardı. Buna baxmayaraq Dokuhə kazarması kimi bir yerdə, Allah bilir, necə dözürdülər. Hər halda qışın o soyuğunda nə Dokuhənin vəziyyətini dəyişmək mümkün idi və nə də kifayət qədər vəsait var idi.

Vəziyyətlə bağlı cənab Həmədani birbaşa Həmədan ordusunun komandiri Səmavatiyə zəng edərək Dokuhə kazarmasının, o cümlədən, əsgərlərin şəraitini açıqlayır. Səmavati əlinə qələm götürüb, nə lazım olduğunu bir-bir soruşduqca, Həmədani deyir, o da yazır: "Konserv azuqələr, çörək, plastik aftafa, kəfgir, çömçə, qazan, səngər kisəsi, işıq ləvazimatı, qızdırıcı avadanlıq, neft çəlləyi, çıraq, ədyal..." Cənab Səmavati də elə həmin gündən etibarən lazımı vəsaiti hazırlayıb, kazarmaya

göndərməyə başlayır. Bu minvalla Hüseyn Həmədani döyüşçülərin asayişi və tələbatı üçün əlindən gələni edir və onların Dokuhə kazarmasındakı vəziyyətini yaxşılaşdırır. Qısası, hara kömək lazım idisə, cənab Həmədani orada idi və hökmən bir iş görməli idi.

# Dördüncü fəsil

Artıq mən cənab Hüseyn Həmədaninin sıravi insan olmadığına əmin idim. Çünki adi adam özünü iki – biri hamar və düz istiqamətdə və digəri isə dolama və təhlükəli yol ayrıcında gördüyü zaman mütləq hamar və düz yolu seçər.

O günlər cəbhədə vəziyyət çox qarışıq olduğuna və Həmədaninin məşğuliyyəti artdığına görə həyat yoldaşı və oğlunu görməyə macal tapa bilmirdi. Pərvanə xanım o günlər barədə Minaya belə məlumat verir:

– Vəhəb bizə baş çəkməyə gəldiyi günlərdə ayaq üstə dura bilirdi. Bununla belə, həmişə başqalarının vəziyyəti onu narahat edirdi. Halbuki kimsə onun özünə gün ərzində qulluq etməli idi. Sanki bizi görmürdü və cəbhədən qayıdanda da şəhid olan əsgərlərin ailələrinə baş çəkməyə gedirdik. Doğrusu, məni çətin günlərə hazırlamaq istəyirdi. Mən isə yorulmuşdum, darıxırdım. Onun Həmədanda daha çox qalmasını, bizim kənarımızda olmasını istəyirdim. Hər dəfə şəhid ailələrinin nisgili və tənhalığından danışardı və onlara baş çəkib, qayıdanda deyərdi: “Pərvanə, bu şəhidin arvad-uşağı olduğu halda öz istəyi ilə cəbhə yolunu seçib. İndi isə onların ailələrini tək qoymaq olmaz!” Mən bunları eşidəndə və ya görəndə etiraz etməməyə çalışsam da bəzən mümkün olmurdu...

Sanki cənab Həmədani şəhid ailələrinə baş çəkməyi özünə borc bilir, hətta dincəlmək üçün ailəsinin yanına qayıtdığı neçə gün ərzində də bunu unutmurdu.

Cənab Həmədani otağın ortasında ayaq üstə dayanıb, Vəhəbi gah bağrına basıb qucaqlayır, gah da yuxarı atıb-tuturdu. Uşaq da qəhqəhədən uğunub gedirdi. Pərvanə

xanım əlində çay sinisi içəri keçib oturandan sonra Həmadani də Vəhəbi öpüb onun qarşısında əyləşdi.

Anam deyərdi: "Bəzən insanın ürəyi o qədər dolur ki, köksündə saxladığı və beynində min dəfə çək-çevir etdiyi fikirləri bir anda açıb söyləyir!"

Pərvanə xanım stəkanı Hüseynin qarşısına qoyub, birbaşa belə deyir: "Sənin kimi əsgər olan və vəzifə daşıyan çoxdur! Niyə onlar bu qədər cəbhəyə cəlb olunmurlar?!" Cənab Həmədani cavab verməmiş "Mən hamiləyəm, Vəhəb kimi başqa birisi yoldadır!..." – deyə ona etirazını bildirir. Həmədani isə təbəssümlə Vəhəbi öpərək deyir: "Bu dəfə Zəhra olacaq, yoxsa Mehdi? Səncə, bunun fərqi var?"

– Yenə cəbhəyə getməli olsan, onda mənim, Vəhəbin və bu uşağın taleyi necə olacaq?

– Sizin də Allahınız var! Mahmud Şahbazi özü Həmədan Korpusunun komandirliyini kənara qoyub, cəbhəyə – Əhməd Mütəvəssilianın, İbrahim Himmətin yanına gedib! Şahbaziyə and-aman elədim ki, məni də aparsın! Allah səni də, uşaqları da qoruyar! Hal-hazırda Xürrəmşəhr, Bostan, Hüveyzə və Süsəngerdin əhalisi əsir düşüb! Düşmən qadınlara, uşaqlara rəhm edən deyil! Əgər biz də getməsək, bəs, onların Dezfula, Əhvaza və başqa yerlərə irəliləyişinə kim mane olacaq?! Bilirəm, çətindir! Amma getməliyəm və getməyə bilmərəm!

Doğrusu, seçilmiş insanlara adi gözlə baxmaq olmaz! Onlar seçdiyi peşə və ya məqsədə görə adi insanlardan daha çox məsuliyyət hiss edirlər. Cənab Həmədani də belə idi. Yəni cəbhəyə getməli olduğunu düşünərkən və orada hazır olmaq daha vacib olarkən nə Pərvənə xanım, nə də anası ona mane ola bilməzdi.

O, neçə ay ailəsini tərk edəndən sonra 1982-cu ilin may ayında yenidən Həmədana qayıdır və sübh tezdən saat 3-də Mahmud Şahbazi ilə şəhərə çatırlar. Onlar hərbi düşərgəyə gedərkən yolda Şahbazi ona deyir:

– Mən İsfahana gedirəm, anam xəstədir. Sən də vaxtı yubatmadan evə baş çək.

– Hələ tezdir, onları oyatmaq istəmirəm. Gün çıxanadək gözləyərəm.

Onun səhər tezdən gəlişi həyat yoldaşı və anasını yaman təəccübləndirir. Amma bu qayıdış özü üçün də çətin idi və cəmi 48 saatdan sonra qayıtmalı idi. Anası onu göz yaşları içində qucaqlayaraq deyir: "Hüseyn, səni Allaha and verirəm, məni və arvad-uşaqlarını da nəzərə al! Bilirsən ki, neçə aydır səni görmürəm, oğlun səni tanımır, bir bax, qucağına gəlmir! Axı, cəbhə təkcə sənə tapşırılmayıb ki! Üç ildir dağ-düzəndə didərginsən! Bəsdir vuruşdun! Daha yığış ev-eşiyinə!"

Belə vəziyyətdə insan hansı dillə hətta bir həftə belə qala bilməyəcəyini dilinə gətirə bilər! Odur ki, yenə dostu Mahmud Şahbazini misal çəkir. Çünki anası və həyat yoldaşının ona böyük hörməti olduğunu bilirdi. Beləliklə, həmin gün gecəni də ailəsinin yanında qalır. Ertəsi gün səhər yeməyindən sonra çantasını hazırlayarkən Pərvanə xanım başının üstünü kəsdirərək soruşur:

– Xeyir ola! Hara inşallah?

Anası da cavabını eşitmək üçün onlara yaxınlaşır.

– Şahbazi İsfahana gedib. Anası xəstəxanadadır. Mən də getməliyəm ki, işləri yerdə qalmasın. Əgər işi olmasaydı, yanınızda qalardım. Mən getməsəm, onda Şahbazinin işləri yarımçıq qalacaq.

Anasının ürəyi kövrələrək rəngi dəyişilir və gözləri yaşla dolur:

– Mahmud Şahbazinin öz vəzifəsi var, ondan sənə nə?! Məgər sən getməsən, cəbhə və müharibədən nə əskiləcək?!

Həmədani gülümsəyərək deyir:

– Dalımca ağlama ki, arxayın gedim və orada əzab çəkməyim ha!

Az sonra anası da göz yaşlarını silərək onu belə yola salır:

– Get, bala! Yaxşı, daha ağlamaram!

Həmədani həmin gün səhər birbaşa Dokuhəyə sarı yollanır və gecə ora çatanda deyirlər ki, Mahmud Şahbazi də İsfahandan qayıdıb. Yəni hər ikisi cəmi bir sutka ailəsinin yanında qalıb, yenidən cəbhəyə qayıdır.

Mənə hələ də belə şeyləri başa düşmək çətin idi. Sadəcə anladığım məsələ o zaman döyüş, vətəni müdafiə hissinin Hüseyn və silahdaşları üçün hər şeydən önəmli olmağı idi.

Ertəsi gecə cənab Həmədani görür ki, altı-yeddi furqonun içi yorğan-döşək, çadır və başqa şeylərlə dolu Dokuheyə yük göndəriblər. Səmavati və dostları bunu Həmədan şəhərində güclə toplamış, hamısını furqonlara yükləyib göndərmişdilər. Cənab Həmədaninin sualına və təəccübünə cavab olaraq "Biz buradan başqa əraziyə gedəcəyik" deyirlər.

***

Müsahibələrdə qeyd edilir ki, cənab Həmədani və onun cəbhə dostları Mahmud Şahbazi, hacı İbrahim Himmət, Əhməd Mütəvəssilian və bir çoxları əsasən iki ölkə sərhəd bölgəsi və Əhvaz-Xürrəmşəhr arası cəbhə boyunca vuruşdular və onların əsas məqsədi təxminən iyirmi aydan sonra işğal olunmuş Xürrəmşəhri geri almaq idi. Müharibə başlayan vaxtdan Xürrəmşəhr işğal altına düşmüşdü və onu geri almaq çox çətin məsələ idi. Bu məqsədlə böyük

"Beytül-müqəddəs" əməliyyatı başlamışdı. Çətin və böyük kəlmələrin xüsusi vurğulanmağı əməliyyatda hədsiz fədakarlıq və zəhmət çəkildiyini göstərir. Onun 25 gün uzanmağı da maraqlıdır. Bir əməliyyatın 25 gün çəkməyi bilirsiz nə deməkdir?! Fikirləşirdim ki, əməliyyat deyəndə, uzağı bir-iki gün davam edə bilər! Ardıcıl 25 gün əməliyyatda olan döyüşçülərin vəziyyəti haqda düşündüm. Həm də ailələrinin onlardan xəbəri yox idi! Çətin bir hekayə oldu, ailələr və döyüşçülər bir-birindən xəbəri yox idi! Məsələn, təsəvvür edin, Hüseyn cəbhədən ailəsinə zəng edib salamat olduğunu bildirmək istəyəndə telefonu olan başqa bir şəhərə getməli, ya cəbhədən dost-tanışı Həmədan şəhərinə getdikdə filankəsi görmüşəm, salamatdır deməli idi, ya da məktub yazmalı idiər! Allah bilir məktub ünvana nə vaxt çatacaq... Bunları təsəvvür etmək mənim üçün çox çətin və ümumiyyətlə təsəvvürümdən xaric idi.

Radio müntəzəm olaraq Xürrəmşəhrin azadlığı uğrundakı böyük əməliyyatdan danışır, yeni şəhidlər və onların dəfn vaxtından və...

Cənab Həmədaninin həyat yoldaşı və anası həmişə radioya qulaq asır, narahat olur və Hüseyndən xəbərsiz idilər. Pərvanə xanım o günlər haqqında belə deyir: "Hüseyndən xəbər yox idi. Televiziyadan müharibənin qaynar hadisələri, Xürrəmşəhrin azadlığı ilə bağlı əməliyyat xəbərləri və təsvirlər yayımlanırdı. Hamı kimi biz də nigaran idik və bu gün-sabah kiminsə qapını döyüb, Hüseynin şəhadət xəbərini verəcəyini gözləyirdik. Hətta neçə dəfə artıq onun şəhadətə yetdiyinə əmin olmuşduq..."

Qələmi qulağımın arxasına qoyub gözlərimi yumdum. Müharibə epizodlarını yazmaq, nə baş verdiyini anlamaq

üçün müsahibələri bir neçə dəfə oxumalı, sonra gözlərimi yumub onları təsəvvür etməli idim ki, yaza bilim.

Cənab Həmədani və onun qüvvələri digər batalyonlarla birlikdə Xürrəmşəhr-Əhvaz yolunda İraq ordusunun son hücumlarını yenicə dəf edə bilmişdilər. Əhməd Mütəvəssilian sübhdən gəlib, batalyonun vəziyyətini və hücum xəttini yoxlayırdı. Günorta vaxtı Həmədaninin batalyonuna çatır və ona deyir: Gəl gedək kanalın cənubundakı vəziyyəti yoxlayaq. Orada su kanalı var idi. Cənab Həmədani, Mütəvəssilian və daha iki nəfər sinələri üzərində sürüşərək, su kanalının kənarına gedirlər. Uzandıqları halda kameranı kanalın cənub səmtinə tərəf çevirirlər. Kanalın bir tərəfində İraq, digər tərəfində isə İran qüvvələri yerləşmişdi. Göründüyü kimi kanalın cənub tərəfindən hücuma keçmək olmazdı. Onların o biri tərəfi açıq və böyük düzənlik idi və o tərəfdən heç bir təhlükə gözlənilmirdi.

Cənab Həmədani kanalın divarı üstündə sinəsi üstə sürünərək kameranı o tərəf-bu tərəfə döndərərkən qəfildən ayağında göynərti hiss edir. Oturaraq əlini dizinə tərəf yönəldir və ayağını hərarət bürüyərkən dizinin arxasından qan çıxdığını görür. Düşmən bəzən toplarla kanalın ətraf nahiyələrini bombalayırdı. O, əvvəlcə top qəlpəsinin ayrılaraq ayağına dəydiyini düşünür. Əhməd də ona yaxınlaşaraq yanında oturur. Başqa bir döyüşçünün köməyi ilə Hüseynin toz-torpağa bulaşmış şalvarının ətəyini cırıb yuxarı çəkir. Sonra deyir ki, bu güllə yarasıdır, qəlpə yox. Onlar güllənin haradan atıldığını bilmək istəyirdilər. Başlarını arxaya çevirəndə görürlər ki, Mütəvəssilianın sürücüsü sükan arxasında qanına qəltan olub. Əhməd boynuna atdığı şalı açıb, Hüseynin dizinə bağlayır. Onlara xəbər verilir ki, düşmən tankları şimal

səmtindən və heç kimin gözləmədiyi istiqamətdən irəliləyir. Mütəvəssilian dərhal ratsiya ilə hamıya belə məlumat verir: "Kanalın şimal tərəfindəki batalyonlar döyüş vəziyyəti alsın və  RPG-lər hazır olsunlar!" Sonra da bir-iki nəfərin köməyi ilə Həmədanini maşına mindirir. Onlardan biri sükan arxasında, Əhməd də onun yanında oturur. Vəziyyət çox təhlükəli olduğundan sürücü bacardığını edərək Xürrəmşəhr-Əhvaz asfalt yoluna qədər on kilometrlik məsafəni sürətlə qət edir. Yolda Həmədani ağrının şiddətindən bir neçə dəfə huşunu itirir. Onlar gəlib yol postuna çatırlar və elə orada Həmədanini maşından endirib, yerə qoyurlar. Əhməd Hüseynin çiynini sıxaraq deyir: “Cəbhə xətti böhranlı vəziyyətdədir! Həmədani, biz daha getdik!"

Cənab Həmədaninin alnına soyuq tər çökmüş, dodaqları qurumuşdu. Hərdən ağrıdan qeyri-ixtiyari inildəyir, halsızlaşır sanki mürgüləyirdi. On beş dəqiqədən sonra yardıma gələn vertolyot yolun kənarında yerə enir. Onun pərlərindən qalxan külək Hüseynin üzünə dəydikcə onu yarı huşsuz vəziyyətdən bir qədər ayıldırdı. Ekipaj onu bir neçə başqa yaralı ilə birgə vertolyota mindirəndən sonra görür ki, içəri müxtəlif yerlərdən gətirilən yaralılarla doludur. Vertolyot "Ümidiyyə" aviabazasında yerə enəndən sonra ardını özü belə nəql edir:

“Ümidiyyə kazarmasında bizi geniş bir anbara apardılar. O geniş yerdə yaralı uşaqlar xərəklərdə yan-yana uzanmışdılar. Hər tərəfdən iniltilər, fəryadlar gəlirdi. Özümün də ağrılarım var idi, amma ətrafımda gördüyüm kədərli mənzərələrə dözmək daha çətin idi.”

Mənə maraqlısı cənab Həmədaninin o vəziyyətdə özündən çox başqaları barəsində düşünməsi idi. Sinəmdə həbs edib saxladığım nəfəsimi azad etdim, gözlərimi açıb

qulağımın arxasına qoyduğum qələmi əlimə aldım. Bundan sonra fikrimi ürəkağrıdıcı səhnələrdən yayındırmaq üçün tez bir iki səhifə irəli keçdim. Bir-iki səhifəni oxudum. Sonra onun Tehran xəstəxanasından qaçma səhnəsini təsəvvür etdim. Məni gülmək tutdu. Ürəyimdə ona dedim: "Halal olsun sənə qardaş!" Sonra daha çox güldüm. “Əhsən sənə qardaş!” Atam həmişə bu sözü həmkarlarına, yaxın dostlarına deyərdi. Mənim də bu sözdən çox xoşum gəlirdi və bəzən gizlində istifadə edirdim. Mənə elə gəldi ki, Hüseynlə bacı-qardaş olmuşam.

Cənab Həmədanini anbardan aviabazanın xəstəxanasına aparırlar və ertəsi gün əməliyyat olunur, dizlərini keyidib, gülləni çıxarırlar. Üç gün sonra onu Tehranın Mehrabad hava limanına aparırlar. Həmin günlərdə hava limanının daxili uçuş zalları, müharibə yaralıları üçün müvəqqəti sağalma mərkəzlərinə çevrilmişdi. Zalların hamısı çarpayılarla dolu idi. Təyyarələrlə gətirilən yaralılar həmin salonlarda yerləşdirilirdi. Cənab Həmədaniyə deyirlər ki, biz səni İmam Xomeyni xəstəxanasına aparacağıq. O, nə qədər "lazım deyildir" – desə də, qəbul etmirlər. Onun ayağı dizdən yuxarı gipsdə idi. Əsalarına söykənə-söykənə zalda cərgə ilə düzülmüş çarpayıların yanından keçir və oradakı məmurlardan birinə çatıb deyir: "Zəng etmək istəyirəm. Bundan sonra o, hava limanının telefon olan otağına keçir və korpusun nömrəsini yığır:

– Mən Həmədaniyəm, cənab Səmavati ilə danışmaq istəyirəm.

Səmavati ilə Dokuhə kazarmasından tanış idi. Səmavati ona deyir: "Doğrudan, özünsən?! A kişi, haradasan? Bu gün ailənə şəhid olduğun barədə məlumat verilib! İndi necəsən?"

– Hacı, yaxşıyam. Sabah səhər məni İmam Xomeyni xəstəxanasına aparmaq istəyirlər. İndi yola düş və hava işıqlaşmamış burada ol. Hava limanının daxili reyslərinin salonunda ilişib qalmışam.

Cənab Həmədani səhərə qədər yata bilmir. Bir neçə dəqiqədən bir oyanır və əsalarına söykənərək salonunun şüşə qapısına get-gəl edir. Sübh binanın ön pilləkənlərində təcili yardım maşınının dayandığını görür. O, həmədanlı sürücünü tanıyır. Mühafizəçi şüşə qapıdan təcili yardıma tərəf gedir, amma heç nə demir. Yəqin ki, təcili yardıma görə heç nə demir. Hüseyn də mühafizəçinin arxasınca gedir. Sürücü təcili yardımın qapısını açır və o da özünü maşının içinə atır. Mühafizəçi ğfe-məəttəl qalmışdı. Cənab Həmədani gülümsəyir, bir əlini yuxarı qaldırır və deyir: "Biz getdik, sağ ol." Sonra sürücü ayağını qaza qoyub, Həmədana tərəf yola düşür və o, beləcə xəstəxanadan qaçır.

Fikirləşdim ki, səhər oğlunun şəhadət xəbərini eşidib, axşam isə onu görmək istəyən ana və qarşısında dayanmaq istəyən oğul üçün bu görüş dünyanın ən ağır işidir.

Cənab Səmavati Həmədaniyə xəbər verir ki, yoldaşınız və oğlunuz ananızın evindədir. Təcili yardım maşını evin qarşısında dayananda ana özünü oğlunun üzərinə atır. Əvvəlcə başına qışqırır, sonra isə üz-gözündən öpür, daha sonra hamısı birlikdə ağlayıb gülürlər. Özü və xanımı da ağlayıb, gülüşərək düşdüyü vəziyyətinə tamaşa edirlər...

Evdə cənab Həmədani otağın küncündəki çarpayıda yatır və neçə gün dincəldiyi barədə belə deyir: "İnanın, həyatımın ən ağır günləri cəbhədən sürgün olunduğum o bir neçə gün olub. Otaqda çarpayıda uzanmışdım və hər dəfə radioda hərbi marşı, müharibə xəbərlərini eşidəndə ürəyim partlamağa qalırdı, dəli kimi olmuşdum. Öz-özümə

deyirdim ki, indi uşaqlar cəbhədə əməliyyatdadır, amma sən balaca bir yaraya görə gəlib oturmusan ananın evində. Öz-özümə çox əsəbiləşirdim. Bu vəziyyət səkkiz gün davam etdi, yəni mayın 20-dək Həmədanda qaldım. 1982-ci il idi."

O, mayın 18-də Həmədandakı dostlarından birinə zəng edib, deyir: "Anam, bacım və yoldaşım evdən çıxmağıma belə razılıq vermirlər, hələ bölgəyə getməyim qalsın bir tərəfə! Sabah qapıya təcili yardım maşını göndər. Deyərik ki, ayağımın sarğısını dəyişmək istəyirlər."

Cənab Həmədani beləcə səkkiz gündən sonra Həmədanı tərk edib döyüş bölgəsinə gedir və Bürucerd şəhərinə çatanda, telefon köşkündən Səmavatiyə zəng edib deyir: "Mən döyüş bölgəsinə gedirəm. Sən ailəmə əhvalatı danış ki, məni gözləməsinlər." O da əsəbiləşib qışqırır:

– Ay insafsız, bu deməkdir?! Allah da razı olmaz! Sən günah etdin...

– Nə istəyirsən, de! Amma mən getməli idim. Bölgədə vəziyyət pisdir və mənim evdə oturmağım günahdır. Hər halda onlara de ki, döyüş bölgəsindən zəng vurub deyiblər ki, vacib məsələyə görə filankəs cəbhəyə qayıtmalıdır...

– Bəh-bəh! Gözlərim aydın! Mən sənin ananın duz-çörəyini yemişəm. İndi məndən yalan danışmağımı istəyirsən? Mən hər nəyi olduğu kimi deyəcəyəm!

– Başqa çarəm yox idi. Nə bilirsən elə, mən getdim.

Bu qaçış və bu söhbətlər üzümdə təbəssüm yaratdı. Fikirləşdim ki, get-gedə belə qeyri-adi insanlara rəğbətim artır. Atam demişkən, insanlar yerində oturmaqla cəsarətli olmurlar. Dəftəri bağlayıb çantama qoydum. Paltomu və şalımı geyinib, anama mesaj yazdım:

– Darıxıram. Axşama qədər evdə tək qala bilmərəm. Nənəmgilə gedirəm.

Anamın razılaşacağını bilirdim. İlk dəfə nənəmin evinə tək getmişdim. Cümə axşamı idi. İki il əvvəl, məktəblər tətil idi. Axşama qədər evdə tək qalmağa dözə bilmirdim. Marşruta minib Tehranın bu başından o başına getdim. Gecə anam, Mina və atam da nənəgilə gəldilər. Anamla Mina hay-küy saldılar ki, niyə tək getmişəm. Atam da dedi ki, xəbər vermədən getməməli idin! Bir az keçdi, hamı sakitləşdi. Sonra atam gülümsəyərək qulağıma dedi: "Mənim cəsur və ağıllı qızım!"

Həyətdəki qapını bağladım. Avtobus dayanacağına qədər cənab Həmədaninin bütün davranışları, seçimləri və hərəkətləri beynimdə dolandı. Fikirləşdim ki, görəsən, Minanın müsahibələri, cənab Həmədani, festival və mükafat barədə nənəmə bir şey deyim, ya yox...

# Beşinci fəsil

Müharibənin hədsiz təsiri və qəribəlikləri barədə düşünürdüm. Müsahibələri oxuduqca daha qorxunc hisləri yaşayırdım. Biri cəmi on-on iki gündən sonra digərini görəndə on yaş qocaldığını hiss edir. Həqiqətən qəribədir. Bu o deməkdir ki, hər gün bir ilə bərabərdir. Yəni bir insan hər gün bir il qocalır. Cənab Həmədani yaralandıqdan sonra Mütəvəssilianı cəmi neçə gün görməmişdi. Amma onu görəndə yəqin ondan "bu 40 yaşlı insan neçə gün əvvəlki həmin 29 yaşlı Əhməddirmi?!" – deyə soruşmuşdu.

Hər iki əsasını götürmüşdü; qoltuqaltı növündən. Onlar bir-birlərini qucaqlayıb öpürlər. Mütəvəssilian özü neçə dəqiqədən bir ağrıdan kirpiklərini açıb-bağlayırdı. Həmədani kimi onun da ayağı yaralanmışdı və yaralı halda cəbhədə qaldığı üçün vəziyyəti yaxşı deyildi və ağrıları var idi.

Bu hissələri oxuyanda cənab Mütəvəsilianın yaşlı görünməsinin təbii olduğunu düşündüm. Məncə, ona əməliyyatın bu qədər çətinliklərini, müharibənin ağrı-acılarını, sıxıntılarını və neçə gün ərzində yaşadığı təzyiqləri deyərkən bir insanın mənən ölməyi, əldən düşməyi və yaşından neçə il böyük görünməyi üçün kifayət etdiyini anladım. O, Əhmədlə səngərdə görüşür və ürək sözlərini dinləyir.

Növbəti səhifədə oxuduğum kimi, Hüseynin yeganə fikri dostunu görmək idi. Buna görə də gördüyü hər kəsdən soruşurdu: “Mahmud Şahbazini görmüsüzmü? Necədir? O haradadır?" Onlardan biri döyüş yoldaşı Mahmudzadə idi. Mahmudzadə Hüseyni nigaran görüb

deyir: “Canım, bir az hövsələn olsun! Mən onun yanından təzə qayıtmışam. Səndən də sağlamdır!" Cənab Həmədani deyir: "Ürəyim sakitləşmir, özüm gedib görməliyəm." Buranı oxuyanda nənəm yadıma düşdü. Deyərdi: “Sizin üçün darıxanda, çöhrənizi yadıma salıram, səsiniz qulağımda cingildəyir. Hər birinizi görmək, öpmək və bağrıma basmaq üçün qanad açmaq istəyirəm!” Nənəm belə olanda, daha dözə bilməzdi və çadrasını başına atıb, şəhərin o başından yola düşər, bu başına gələrdi.

Mənə elə gəldi ki, cənab Həmədaninin də halı o vaxt belə idi. Kimə çatırdısa dostunu soruşurdu. Onu orada heç kim və heç nə saxlaya bilməzdi. Gecəni o haqda düşünərək keçirir. Mayın 21-i səhəri gün çıxanda daha səbrinin tükəndiyini görür və Mahmudzadəyə deyir: “Bu günədək heç kim üçün bu qədər darıxmamışdım!” Dostu olduğu səngərə tərəf yola düşür. Beş yüz metr gedəndən sonra cəbhə xəttinə və onun yerləşdiyi yerə çatır. Həmədani boynundakı şalı ilə üzünün tərini silir, birinci səngərə baş çəkir və onun isti səngərdə oturduğunu görür. Şahbazi səngərin küncündəki canamazın yanından ratsiyanı götürüb, mikrofonu ağzının qabağına tutur. O, arxası səngərin qapısına tərəf əyləşmişdi. Hüseyn səngərin qapısı önündə dayanır. İçəridəkilər pıç-pıç salıb, dostunun gəldiyini söyləmək istəyirlər. Həmədani tez barmağını dodaqlarının önünə dirəyir ki, hələlik deməsinlər. Sonra yavaşca qapının arxasında dayanır və qulağını qapıya dayayaraq qulaq asmağa başlayır:

– Hacı, heç bilirsən, kim gəlib?

– Həmədani gəlib!

Şahbazi bunu eşidən kimi ratsiyanı yerə qoyur və cəld səngərin qapısına tərəf cumur. Onlar qucaqlaşaraq başlarını bir-birinin çiyninə qoyub doyunca ağlayırlar. Elə

bəzən mənimlə Səna və ya nənəm kimi; əlbəttə darıxdığı zaman və yaxud bir-iki dəfə gizlicə ağladığını gördüyüm atam kimi.

Hər ikisi bir neçə dəqiqə danışmır və sadəcə göz yaşı tökür. Özləri də niyə birdən-birə belə olduqlarını bilmirdilər. Məncə, bu hal darıxdıqlarına, ya bir-birini itirəcəyindən qorxduğuna və ya sevincə, ya da hamısına görə idi. Əlbəttə, müharibənin hər anı qorxu, dost və əl-ayaq itkisi ilə keçir, cəbhədə filan dostu əldən vermək, yaralanmaq, əsir düşmək təbii haldır. Amma müharibənin qızğın çağında dostu sağ-salamat tapıb görməyin, onu qucaqlaya bilməyin sevinci tamam başqa şeydir! Ondan sonra bütün həsrət, qorxu və sevinc bir-birinə qarışır və insana dostu bağrına basıb ağlamaqdan başqa heç nə təskinlik vermir.

Qələmi döşəkcənin altına qoyub, gözlərimin yaşını sildim. Sonra dərindən nəfəs alaraq televizora baxmağa başladım. Daha sonra gözlərimi yumub dedim: "Kaş, cənab Həmədaninin sərgüzəşti burada bitəydi; dostları ilə birgə təhlükəsiz yerdə!" Birdən nənəmin səsi gəldi:

– Nura, niyə gözlərini bağlamısan?!

– Heç nə!

Gülümsədim və qələmi götürdüm:

Şahbazi ona deyir: Bu ayaqla burada nə işin var!?

– Ayağım yaxşıdır. Qala bilməzdim, gəlməli idim.

– Bu axşam əməliyyata başlayırıq. Briqada iki ox təşkil edib; Birini mən idarə etməliyəm, digərini İbrahim Himmət idarə edəcək. Sən də geri dön, Himmətin yanına.

– Mən özüm də hacı Himmət üçün çox darıxmışam. Gecənin sonunda gedib ona dəyəcəyəm.

– Yox. Elə indi get. Uşaqların birinə deyim səni maşınla geri qaytarsın. Cənab Həmədani geri – Himmətin yanına qayıdır.

Gecə saat on ikini keçmişdi və 1982-ci ilin may ayının ikinci gününə daxil olmuşdu. Yavaş-yavaş Şahbazi bəyin səsi simsizdən kəsilir. Himmət deyir: Şahbazi bizimlə əlaqə saxlamır; gedək görək hara gedib.

Cənab Şahbazinin səngərinə tərəf gedir. O, bir müddət sonra qayıdır. Cənab Həmədani ona baxır; Amma hacı Himmət baxışlarını ondan oğurlayıb birbaşa ratsiya ilə digər batalyonlarla danışmağa başlayır. Eyni zamanda Mahmudzadə də içəri girib Cənab Həmədaniyə deyir: "Gəl gedək böyürdəki səngərə...".

Elə bilirəm mən bu yaşda bu yazılardan bir şey başa düşürəm; cənab Həmədani o yaşda bunları başa düşmürdümü? Yaxşı, kimsə müqəddiməsiz çağırıb, filan yerə gedək deyəndə, daha sonra camaatın içində qəfildən bir neçə saat əvvəl soruşduğu yaralı ayağını soruşanda, daha sonra müqəddiməsiz "müharibədir də!" – deməyə başlayanda nə düşünürsən?! Qəmli-qəmli deyir ki, filankəs, filankəs, filankəs bu günə kimi şəhid olub. Bu, hamımızın getməli olduğumuz yoldur; Amma əməliyyat uğurla gedir və biz Xürrəmşəhrin azadlığına yaxınlaşırıq." Yaxşı, hamı başa düşür ki, nə isə olub. Bu sözlərin mənası nə ola bilərdi? Mahmudzadənin Həmədaniyə qonşu səngərdə dediyi sözlər kimdən ayrılmalı olduğumuzu xatırlarırdı?

Cənab Həmədani onun sözünü kəsib deyir: Şahbaziyə nə isə olub? Cənab Mahmudzadə? Başını bulayır və deyir: Yaralıdır.

Yaxşı, müharibədə kimsə yaralanıbsa, bu qədər bəhanə gətirmirlər. Məhz bu səbəbdəndir ki, cənab Həmədani

deyir: Gecə mən Mahmudla məğrib və işa namazlarını qıldığım zaman başqa cür idi. O, şəhid olubmu?

– Bəli. Səngərin kənarında Katyuşanın partlaması ilə...

Tutulub qaldım. Bu lənətə gəlmiş katyuşanın nə olduğunu öyrənmək üçün nə qədər axtarsam da, bacarmadım. Oxuduqlarımdan yalnız qalanları ağlıma gəldi:

Həmədani cəld iki əsasını qoltuğunun altına qoyur və ay işığı altında dostunun səngərinə doğru gedir. Səngərin ətrafı yanmışdı. Katyuşanın partladığı və düşdüyü yer çökmüş, alt-üst olmuşdu. Bir neçə addımlıqda qanla dolu kiçik bir çuxur var idi. Orada  əyilib dostunun qanına əlini vurur.

Maraqlıdır, mən niyə ağlamağımı saxlaya bilmirəm; halbuki Həmədani o vaxt dostuna ağlamayıb. Niyə sadəcə əlini dostunun qanına bulaşdırırdı və başına, üzünə çəkirdi...

Tez qalxıb gedib üzümü yudum. Nənəmin mətbəxdən məni belə görməsini istəmirdim. Düşündüm ki, Həmədani əziz dostunu itirməsinə görə necə də səbr edib...

Anam nənəmə zəng etmişdi; Mənim dalımca gəlməyini istəmişdi. Nənəm deyib: “Sabah cümə günüdür, hamınız gəlin bura. Nura bu gecə mənimlə qalacaq.” Məndən soruşmadı ki, qalacağam, yoxsa yox; Fikirləri oxuyurmuş kimi bilirdi onunla qalmaq istəyirəm. Gecənin sonunda qarşımda oturdu və əlimdən tutub dedi:

– İndi danış görüm, nəyə görə üzülürsən mənim balam.

Ürəyim istəyirdi deyəm ki, elə bu dəqiqə kədərli bir mətn oxudum, kədərli bir mənzərəni gördüm və hələ də təsviri zehnimdədir; mən elə bir işi öhdəmə götürmüşəm ki, əgər Mina bilsə, başımı kəsəcək. Demək istəyirdim ki, bu vərəqlərdə qərq olmuşam, hələ çox şeyi, hətta

müharibəni də anlaya bilməmişəm; ürəyim sıxılır...; amma demədim. Sadəcə dedim: Sonra deyərəm, yaxşı? Gülümsədi:

– Sonra gec olmasın ha!

Başımı buladım və mənim üçün atdığı döşəyin üstünə uzandım.

Səhər ata-ana və Mina gələnə qədər müsahibə vərəqlərini yenidən nəzərdən keçirdim. İlişib qalmışdım; oxuyub yazmağa ara verəndə cənab Həmədani üçün darıxırdım; bir növ atam üçün darıxmış kimi. Qalan müsahibələri oxumaq mənim üçün çətin oldu və onları buraxa bilmirdim. Elə bil Hüseyn ağanın həyatında mən də o adamlardan birinə çevrilmişdim. Onun yanında olmaq və hekayəsinin sonuna qədər getmək istəyirdim.

Bir neçə səhifə oxuyandan sonra dünən gecədən bəri qəlbimi sıxan zəiflik, ürək ağrısı, kədər hissi aradan getdi. Həmədaninin evindəki televizorun səsi qulağıma düşmüşdü: “Xürrəmşəhr, qan şəhəri azad oldu!”

Yenə məsafələrə çatmışdım; döyüş meydanında kədər və xoşbəxtlik arasında qısa fasilələr. Təslim əlaməti olaraq paltarlarını çıxarıb əllərini qaldıran bütün iraqlı əsgərlərin şəkli, Xürrəmşəhr əhalisinin giriş yolunda etdikləri şükür səcdələri gözümün qabağında idi.

May ayının 3-ü idi. Cənab Həmədani səngərdən çıxanda görür ki, qüvvələrimiz əsir düşən iraqlı zabit və əsgərlərini dəstə-dəstə geri aparırlar. O da bir nəfərlə furqonlu toyotaya minir və Xürrəmşəhrin girişinə gedir. O zaman qüvvələrimiz hələ də düşmənlə gərgin döyüşdə idi.

Bir az sonra polkovnik Səyyad Şirazini görür. Onun ətrafında bir qrup yerli və xarici jurnalistlər var idi. Xürrəmşəhrin azadlığını rəsmən elan etməsini gözləyirdilər. Cənab Səyyad Şirazini Xürrəmşəhrin

azadlığını elan etdikdən sonra, xalq və əsgərlər elə o yolda şükür səcdəsi edib sevinirdilər.

Cənab Həmədaninin həyat yoldaşı və anası da bu xəbərləri evdə televizordan dinləyərək sevinirlər. Onlar da Həmədaninin qayıdacağını gözləyirdilər. Buna görə də sevincləri daha artıq idi. Xüsusilə də onların ikinci övladının dünyaya gəlişinə bir şey qalmırdı. Lakin Həmədani o zaman da məzuniyyətə çıxmadı. İkinci oğulları dünyaya gəlir və onun istədiyi kimi, adını Mehdi qoyurlar. O, Həmədana qayıdanda, Mehdi on yeddi günlük idi.

Müsahibənin bu yerləri məni nə qədər sevindirdi; sanki bir şəhər camaatının öz doğma yurdunu düşmən tapdağından azad olanda keçirdiyi bütün xoş hisslər gəlib mənim ürəyimdə oturmuşdu; Elə bil o vaxt orda idim, mənim Xürrəmşəhrim azad edilmişdi...

Nənəmin evinin bülbül zəngi çaldı. Təsbehini yerə qoyub ayağa qalxmaq istəyəndə dedim ki, özüm gedəcəyəm.

Eyvanın pilləkənləri ilə aşağı enib, fit çala-çala evlə on iki metr fasiləsi olan həyətə qaçdım, darvazanın qapılarını zorla açdım ki, atam maşını içəri salsın. Arxa oturacaqda əyləşən Minaya işarə edib, gülümsədim. O, şüşəni endirib bir paket pasteli mənə tərəf atıb dedi:

– Nə olub? Bu qədər xoşhalsan?!

# Altıncı fəsil

Mən əvvəllər briqadalar, batalyonlar, rotalar haqqında oxumuşdum. Briqada batalyondan və rotadan böyükdür. Həmədan vilayətinin şəhərlərinin hər biri üçün bir batalyon nəzərdə tutulmuş, komandirləri də təyin olunmuşdu; Bunların hamısı birləşdikdə briqada sayılır. 1982-ci ilin noyabr ayı Həmədan döyüşçülərindən ibarət müstəqil briqada yaradıldı. Bu, Ənsarul-Hüseyn-32 briqadası adlanır və Həmədani də onun komandiri olur; Amma o, uzun müddət qohumlarından, hətta həyat yoldaşından komandir olmağını gizlədib. Həmədani üçün məqam və vəzifənin əhəmiyyətsizliyi, həm də təvazökarlığı onu sərkərdə olması xəbərini söyləməkdən çəkindirirdi. Müsahibə kağızlarında belə yazılmışdı:

Ənsarul-Hüseyn briqada qüvvələrinin əksəriyyəti Kermanşah şəhərində yerləşdirilmişdi və Həmədani də orada qalırdı. Pərvanə xanım Həmədanda ev əşyalarını toplayırdı. Onlar Səmavati ağanın yaşadığı evin aşağı mərtəbəsinə köçürlər. Beləliklə, Vəhəb də Səmavatinin oğlu ilə oynayır və Pərvanə xanım yaxşı qonşunun varlığı ilə tənhalıqdan çıxır.

Cənab Həmədaninin həyat yoldaşı uzaqdan da olsa bəzi əməliyyatlardan və cəbhədəki vəziyyətdən xəbərdar olurdu. Televiziya ya radio vasitəsilə bilirdi ki, Hüseyn ağa və yoldaşları əməliyyatda olublar; Vəlfəcr-2 əməliyyatı. Həmədaninin eyni əməliyyatda iştirak edən qardaşı oğlu Həmədana qayıdır. Başqalarının bilmədiyi bir şeyi bilmək sənin üçün çox çətin olmalıdır və onlar bu barədə səndən soruşurlar, yeri gəlmişkən, bu xəbər yaxşı xəbər deyil.

Belə vaxtlarda insanlar həmişə ətrafdakı insanlardan uzaqlaşmaq üçün bir yol axtarırlar və mütləq ürəklərində deyirlər ki, kaş bu xəbəri başqası verəydi və ümumiyyətlə niyə mən! Bu səbəbdən Pərvanə xanım cənab Həmədaninin qardaşı oğlundan ərinin vəziyyətini soruşduqda ancaq “yaxşıdır” eşidir. Sakit bir yaxşı, ardınca tələsik vida. Pərvanə xanım isə bu “yaxşı”ya və bu vidaya şübhə edir. Ürəyi əsir və davamlı olaraq cənab Həmədaninin ayağı yaralı halda təcili yardım maşını ilə gətirildiyi günü təsəvvür edir. Tez çadrasını başına atıb cənab Həmədaninin qardaşı oğlunun arxasınca gedir ki, daha çox şey soruşsun. Qapını açanda görür ki, Səmavati ilə xanımı qapının çərçivəsində dayanıblar.

Nənəmin sözləri beynimdə ilişib qaldı. Nənəm deyir: “Çox vaxt kimsə nə isə deməzdən əvvəl, sən özün başa düşürsən.” Ümumiyyətlə kiminsə sizə nə isə deməsini gözləmək lazım deyil. İnsanların qəlbləri bəzən çox şey edə bilir və güclənir; insanın ürəyi hamıdan daha dürüst ola bilər».

Yəqin ki, Pərvanə xanımın ürəyi də belə olub; yəni hamıdan daha dəqiq hər şeyə şahidlik edir. Buna görə də cənab Səmavati ilə yoldaşını qapının qarşısında görəndə soruşur: Hüseynə nə olub?

Cənab Səmavati Pərvanə xanımın nigaran üzünüə baxmır. Başını aşağı salır və sadəcə deyir: Belinə kiçik bir qəlpə dəyib.

– İndi harada, hansı xəstəxanadadır?

– Hüseyn söyüd ağacı deyil ki, bir küləklə əssin, hətta xəstəxanaya belə getmək istəmir və cəbhədə qalmaq istəyir.

– Əgər balaca qəlpə dəyibsə, niyə evə gəlmədi?!

– Siz Hüseyni məndən yaxşı tanıyırsız. Xəstəxanaya getməkdən xoşu gəlmir. Narahat olmayın, mən özüm vəziyyəti ilə maraqlanaram.

Müsahibə səhifələrini vərəqlədim. Qələmi götürüb sətirlərin altında sürüşdürə-sürüşdürə oxumağa başladım:

“Vəlfəcr-2 əməliyyatı çətin və dağlıq coğrafi ərazidə həyata keçirilib; Piranşəhrdən İraqa doğru. Oradakı soyuq və coğrafi vəziyyət müharibəni döyüşçülər üçün çətinləşdirib.

Mənim döyüşdən, müharibə şəraitindən başım çıxmır. Ancaq onu bilirəm ki, hamar və rahat yerdə döyüşmək dağlar və dərələrdə döyüşməkdən daha asandır və heç vaxt səngərlər və parapetlərsiz müharibə formasını dərk edə bilmirdim. Mənim təxəyyülüm həmişə silah, tank, səngər və top kimi şeylərə gedirdi. Həmədaninin döyüşçüləri həmin gecə saatlarla qayalıq yüksəkliklərə dırmaşması və soyuqdan bir-birinin dişlərinin şaqqıltısını eşitməsi qəribə və təsəvvürümdən xaric məsələ idi. Gecə saat 12-də döyüşçülər zirvəyə çatır və orada yerləşirlər. Həmədani və Səyyad Şirazi kimi insanların işi bundan sonra başlayır.

Bu da mənim əvvəlki fikirlərimlə uyğun gəlmirdi. Təbii ki, təkcə mən yox, mənə elə gəldi ki, çoxları mənim kimi düşünür; onlar elə bilirlər ki, komandirlərin işi başqalarından daha asandır; onlar bir yerdə dayanırlar və ancaq əmr verirlər. Məncə, heç kimin ağlına gəlmir ki, o qəribə soyuq gecədə o keçilməz qayalığı qət etdikdən sonra komandirin işi başlayır və o, qalan batalyonları zirvəyə çatdırmaq üçün geri qayıtmalı olacaq. Həmədani və cənab Səyyad Şirazi, dağlıq və keçilməz yolun on kilometrlik hissəsini texnikasız və hətta isti paltarsız geri qayıdırlar ki, batalyonları təyinat yerinə çatdırsınlar. Həmədani həmin gecə öz briqadasının qarşısında çıxış

edir: “Əziz qardaşlar, bu əməliyyat bu gecə baş tutsa, işlər qaydasında olacaq, əgər baş tutmazsa, sabah gecə qüvvələrin sayı üç dəfə çox olsa da belə əməliyyata girə bilmərik. Bu, bizim üçün bir ölüm-dirim məsələsidir.” O, bunu deyən kimi qoşun ayağa qalxıb hazır olduqlarını deyirlər.

Cənab Həmədani və komandirlərdən biri yenidən ərazini yoxlayırlar. Bu zaman düşmən helikopterlərinin əraziyə güclü zərbələr endirdiyini anlayırlar. Elə bu vaxt o, birdən düşmən helikopterinin raketinin onlara tərəf gəldiyini görür və daha heç nə hiss etmir. Gözünü açanda özünü Piranşəhr xəstəxanasında görür. Ona deyirlər ki, helikopter raketi sənin yaxınlığına düşüb, kürəyində nisbətən böyük qəlpə var.” Həmədani, heç olmasa həmin axşam o xəstəxanada gecələməli idi; Amma qəbul etmir. O, öz təkidi və İslam İnqilabı Keşikçiləri Korpusunun Ali Baş Komandanının əmri ilə onu xəstəxanadan Ənsar briqadasının qərargahına aparmaq üçün xəstəxana rəsmilərindən razılıq alır. Çünki orada hərbi əməliyyat zamanı briqada uşaqlarını idarə etmək istəyirdi. Döyüşçülər düşmən xəttinə hücum edərkən Həmədani xərəkdə əməliyyata rəhbərlik edirdi.

Düşünürəm ki, müharibə komandiri olmaq dünyanın ən çətin işlərindən biridir. Təsəvvür edin ki, kürəyinizdə böyük bir qəlpə var və siz uzanıb ağrıdan qıvrılan halda diqqətinizi toplamalı və onlara tez-tez tapşırıq verməlisiz. Məsələn, sizin bəzi qüvvələriniz axşamdan gecə yarısına kimi piyada yol gedib düşmənin yaxınlığına çatanda ratsiya ilə “düşmən arxasına çatdıq; hücum etməliyik?", siz o qədər diqqətli olmalı və qalan qüvvələrin statistikasını, hər birinin harada olduğunu və hücum vaxtının gəlib çatmadığını nəzərdə saxlamalısınız ki,

ratsiya əlaqəni yaradana deyəsiniz ki, hələ hücum vaxtı deyil. İndi hücum vaxtı deyil, gözləyin, ya da nə...

Cənab Həmədaninin döyüş yoldaşı ratsiya ilə zəng edir: "Həmədani qardaş, biz hücuma hazırıq. Bundan artıq gözləsək, düşmən bizim mövqeyimizi biləcək, uşaqlar isə qətliam olacaq!" O, çətinliklə dikəlib deyir: "Yeni qüvvə gələnədək bir az da dözmək lazımdır!"

Düşmənə çətinliklə çatan və düşmənin qüvvələri görməyəcəyindən, komandirinin onun hücuma keçməsinə imkan verməyəcəyindən hər an narahat olan o döyüşçünü düşündüm. Çünki o, döyüşçünün bilmədiyi şeyləri bilirdi.

Həm döyüşmək, həm də komandirlik etmək mənə çətin görünürdü. Hüseyn ağanın silahdaşı məcbur olur ki, bir neçə dəqiqədən bir Həmədaniyə zəng vurub yenidən “hücum edək?” deyə soruşur. Onun səbri döyüş meydanında da özünü göstərirdi. Fiziki ağrı və ruhi təzyiq ilə döyüş yoldaşlarının dəfələrlə çağırışlarına cavab olaraq nə əsəbiləşir, nə də qışqırır; sadəcə deyirdi; gözləməlisən. Bir az da gözlə, qardaş!

Sonra qalan qoşuna ratsiya ilə zəng vurur və onların hamısının lazım olan yerə çatdıqlarına əmin olduqdan sonra hücum əmrini verir.

Belə anlar çox həyəcanlı və əlbəttə ki, çətin olmalıdır; ayağa qalxıb əsa ilə bir tərəfdən başqa bir tərəfə gedir və o tərəfdən bu tərəfə gəlir. Birdən minlərlə atılan güllənin səsinə qulaq asır. Səsi soyuq və qaranlıq yüksəkliklərdə külək kimi dolaşır. Həmədani ratsiya ilə qoşunlarına zəng edib, danışır. Düşmən çaş-baş qalmışdı. İran qüvvələri onların hədəfi olan əraziləri ələ keçirə bilər.

Həmin gecə Ənsarul-Hüseyn briqadası onun komandirliyi ilə öz missiyasını yaxşı yerinə yetirir. Vəlfəcr-2 əməliyyatı uğurla başa çatır; belə ki,

Həmədaninin sübh namazı sevinc göz yaşları ilə müşayiət olunur. Elə bilirdim ki, qələbə həmişə ləzzət bəxş edir; bu qələbə döyüş meydanında və ölkənizin ərazisini zəbt etmək niyyətində olan düşmənə qarşı olarsa, sevinci min dəfə artar.

Onun bu sevinci daha başqa xoş xəbərə qarışır. Belə ki, o zaman həcc səfəri üçün yazdırdığı növbəsi artıq gəlib çatmışdı. Növbəti günlərdə dostlarından birini briqadaya rəis təklif edərək hamı ilə vidalaşmağa gedir. Amma komandirlərin xüsusi yığıncağında ona deyirlər:

– Cənab Həmədani, bu əməliyyatda sizin qüvvələrinizin rolu çox uğurlu olub! Cəbhədə Ənsar kimi briqadaya ehtiyac var və qarşıdan gələn soyuq mövsümə hazır olmalıyıq!

– Mən özüm yaralıyam və üstəlik, indi vidalaşmağa gəlmişdim, Məkkəyə getməliyəm!

– Cənab Həmədani, sizin Məkkəniz buradır. Hələlik cəbhə xəttində qalın və işinizlə məşğul olun!

Həmədani öz qüvvələrinin yanına qayıdıb deyir:

– Qardaşlar, səfərlə bağlı sizinlə vidalaşsam da, deyəsən, bizim Məkkəmiz buradır! Əməliyyat bitənə qədər qalacağıq və hələlik vəzifəmiz budur.

Onlardan neçəsi "Əməliyyatı bizə tapşır, özün get!" – deyə cavab verərkən deyir: "Xeyr! Mən özüm də qalmalıyam!"

Sonra o, müalicəsi ilə əlaqədar Səmavati ilə birlikdə Həmədana qayıdır. Pərvanə xanım ərini görəndə zahirdə ayaq üstə olsa da, əli həmişə belində idi və oğlu Mehdini qucağına götürməyə belə gücü qalmamışdı. Vəlfəcr-2 əməliyyatı zamanı keçirdiyi stress səbəbindən ağrıları daha da şiddətlənmişdi. Həkimə xəbər verirlər. Həkim cənab Həmədanini və onun Piranşəhr xəstəxanasından

verilən məlumatını gördükdə deyir: "Sizə qətiyyən tərpənmək olmaz! Qəlpə onurğa beyninə yaxındır və hər hansı gözlənilməz hərəkət onu iflic edə bilər!" Odur ki, onu dərhal təcili yardımla Tehrana yola salırlar. O, zaman ağrıları o qədər çox idi ki, istər-istəməz qışqırmağa məcbur olurdu. Tehrana çatan kimi xəstəxanada tələsik əməliyyat otağında yerləşdirilir.

Pərvanə xanım otağın pərdəsini bir az kənara çəkir; günəşin şüası cənab Həmədaninin yatağına yaxınlaşır. Pərvanə xanım Həmədaninin anasının yanında dayanır və hər ikisi pərişan gözlərlə ona baxırlar. Həmədani gözünü açıb anasını görəndə ayağına baxır. Ayaqlarını tərpətməyə çalışır, onların hərəkət etdirəndə üzündə təbəssüm yaranır.

Pərvanə xanımın və Hüseynin anasının ürəyində ümid işığıri yanır, gözləri yaşla dolur; Ayaqlarının hərəkət etməsi və yaxşı keçən çətin cərrahiyyə əməliyyatına görə sevinc və minnətdarlıq göz yaşları. Ola bilər ki, bu qəribə hiss Həmədani özünə gələndə nə isə edə bildiyi, ya da onurğa beyni kəsilmədiyi üçün yaranmışdı. Bütün bunlar bir səadət aləminə çevrilmişdi. Bir az sonra çarpayının ətrafı qohumlarla və ordunun uşaqları ilə dolur.

Əməliyyatda cərrahlar onurğanın yan tərəfini bir ovuc qədər parçalayıb, böyük bir qəlpə çıxarırlar. Amma özü ətrafındakılar narahat olmasın deyə ona noxud boyda qəlpə deyirdi. Əlbəttə, təkcə o qəlpə deyildi və onun yanında başqa bir qəlpə də vardı. Həkimlər deyirlər: "Əgər ona əl vursaq, onurğa beyini zədələnər və beldən aşağı işdən düşər! Bəs, hələlik dözməlisən və kifayət qədər istirahət etməlisən!" Ondan sonra cənab Həmədaninin evi briqadanın görüş yerinə çevrilir.

Bir müddət keçməsinə baxmayaraq hələ də düzgün yeriyə bilmirdi; balaca Vəhəbin əlindən tutub evdə yavaş-

yavaş addımlayırdı. Pərvanə xanım Vəhəbin öz atasından daha rahat yeridiyini görürdü. Bütün bunlara baxmayaraq, Pərvanə xanım Minaya evdə gəzintilərindən, otağında keçirdiyi iş görüşlərindən həzz aldığını söylədi; çünki əri onun yanında idi və onu hər gün görürdü. Amma yenə də Həmədani getməkdən dəm vururdu.

Başımı dəftərdən qaldırıb, dərindən nəfəs aldım, qələmi qulağımın arxasına qoydum. Mən elə olmuşdum; bilmirdim Pərvanə xanımla razılaşım, yoxsa cənab Həmədani ilə.

Hüseyn Həmədani iclasların birindən sonra Pərvanə xanımın qarşısında durur və deyir: "Mən cəbhəyə qayıtmalıyam."

Pərvanə xanım ürəyində deyir: Hələ yaxşı deyilsən! Ümumiyyətlə bu növ idarəetmə üsulu yaxşıdır. Dostların gəlsinlər evə və sənə məlumat veri getsinlər?!

Həmədani gülümsəyərək deyir: "Camaat deməz ki, komandir evdə oturub, onun ordusu atəş altındadır?!"

Mən çaşqın qalmışdım. Fikirləşdim ki, ümumiyyətlə müvafiq və ya müxalif olmaq heç mənim səviyyəmdə deyil; mənim yaşım hələ müharibəni, torpaq işğalını, qadınların, uşaqların tənhalığını, yaralı, şəhid olmağı, təhlil etməyə imkan vermir. Öz-özümə dedim: "Ay qız, sən hara bu sözlər hara?!"

Müsahibələri oxumaq və yazmağın davam etdirilməsinin mənim üçün çətin olduğunu hiss etdim. Sonra ürəyimdə dedim: "Daha bacarmıram; bitirə bilmirəm. Elə bil öz ətrafımda fırlanırdım; səviyyəm olmayan min bir acı-şirin hadisənin ortasına düşmüşdüm; onları yazıb kitab edə bilmirdim. Çətin idi. Ürəyimdə dedim: "Sənin etdiyin bu iş dünyanın ən ağır işidir". Sonra dəftəri bağlayıb başımı yazı masama qoydum. Bir neçə

dəqiqə sonra qonaq otağından atamın səsini eşidəndə onun təsviri gözümün qabağına gəldi. Sonra yadıma düşdü ki, atam Mina qəbul imtahanından kəsilib məyus olanda sağa-sola gedib “boynunu sındıra bilərsən” deyirdi. De ki, mən bacararam. Bunu Minaya o qədər dedi ki, axırda o da "bacararam" – deyə cavab verdi və bacardı da.

Bunları xatırlayanda fikirləşdim ki, fərqli olmalı və özümə deməliyəm: “Ən çətin işi bitirməlisən, qalanını da yazmalısan. Ay qız! Qalanını da yazmalısan”. Bundan sonra gözlərim yumulduğu halda dodağımın altında dedim: “De ki, bacararsan...” Sonra qələmi götürüb yazmağa çalışdım:

“Həmin gün cənab Həmədani ilk dəfə dilə gəlib komandir olduğunu dedi. Pərvanə xanım ona deyir: “Keçən il ayağından yaralandın, bu il belindən yaralandın. Gələn il ürəyinin növbəsi olmalıdır!”

– Qəlbim yanımda olmur! Gedəndə ürəyimi sənin və uşaqların yanında qoyuram.

Pərvanə xanım Minaya demişdi: “Mən bilirdim ki, bu, sadəcə, poetik ifadə deyil, onun ürək sözləridir!”

Pərvanə geri çəkilir və yoldaşının çantasını hazırlamaq üçün yerə oturur...

Ona Həmədanidən Vəlfəcr-5 əməliyyatındakı qələbələr və Xeybər əməliyyatının başlanması barədə məktublar gəlir. Nənəm deyirdi ki, məktublar adi insanların ürəyini ələ almaq üçündür.

Ara-sıra bir-birinin çoxlu sözlərindən, ürək ağrılarından xəbər tutan anam və nənəm sadəcə, üzbəüz oturacaqları günü gözləyirlər və ikisi də ürək süfrələrini açırlar. Bir və ya iki dəfə anam nənəmdən soruşdu: "Niyə telefonla danışanda darıxdığını demədin?" Nənəm dedi ki, “bəzi sözlər və həsrətlər yazıla və ya səsləndirilə bilməz;

yanında oturmalıyam, sənə baxmalıyam və deməliyəm.”; Cənab Himmətin Xeybər əməliyyatında şəhid olması da beləydi. Bəlkə Həmədani də yoldaşına yazdığı məktublarda o qədər kədər və həsrəti qeyd etməyin mümkün olmadığını düşünüb. Himmətin şəhadət xəbəri hər yerə yayılanda Pərvanə xanıma da xəbər çatmışdı. Amma cənab Həmədaninin sözlərini, həsrətini dinləmək onun dostu və yoldaşı üçün başqa bir şey idi.

Həmədani 1984-cü ilin yazında ailəsinin yanına qayıdır. Onun üzündə sevincdən heç bir əsər-əlamət yox idi. O zaman yoldaşının qarşısında oturub, ona şəhid Himmətdən danışır.

***

Cənab Həmədaninin həyatı demək olar ki, cəbhədə və arabir ailəsinə baş çəkməklə keçirdi. Bu dəfə də cəbhədən təzə qayıtmışdı. Küçələrinin başında maşından enəndə, ayaqqabılarının izi qarın üzərinə düşür. Papağının qabağını yuxarı qaldırıb, məftillərin üzərinə qonan sərçələrə baxır. Gözü evin qapısına sataşır və tez-tez addımlayaraq özünü qapıya çatdırır. Açar əlində idi və qapını açıb içəri girir. Pərvanə xanım təəccübdən donub qalır, Vəhəb bir anda atasının qucağına atılır. O, sevincini gizlədə bilməyib deyir: “Nə əcəb, bu dəfə belə tez qayıtdın?” Həmədani Mehdini də qucaqlayandan sonra gülümsəyərək “Yaxşı, indi geri dönərəm!" – deyə cavab verir. Pərvanə etiraz etmək istəyəndə, üzünü ona tutub deyir: "Ümumiyyətlə, çamadanları hazırla, burdan gedirik!" Pərvanə də "Xeyir ola?! Zarafat eləmə! Yaxşı, daha soruşmaram ki, niyə tez gəlmisən! Bir sözlə, bizi çox sevindirdin!” – deyib, mətbəxə keçir. Həmədani səsini bir az qaldıraraq deyir: “Başqa evə köçürük!” Pərvanə çaydanı ocaqdan götürüb, tez geri qayıdaraq soruşur:

"Zarafat eləmə! Bu evə elə bu il köçmüşük! Yenə hara köçürük?!" Həmədani deyir: “Elə bir evə gedirik ki, neçə ayda bir yox, heç olmasa, həftədə bir dəfə sizə baş çəkə bilim! Sərpol Zəhaba köçürük!” Həmədani çaydanı götürüb, iki stəkan çay süzərək deyir: "Pərvanə, gəlirsən? Hardasan?" Pərvanə də bir az fikrə dalandan sonra birdən deyir: “Eybi yoxdur, hara desən, gedəcəyəm!"

***

Cənab Həmədani həyətdəki toyota maşının pəncərəsini silir. Vəhəb əyilib yerdən bir ovuc qar götürüb atasının üstünə səpir. Cənab Həmədani də bir az qar götürüb, yuvarlaq ölçülü bir qar topu düzəldir və Vəhəbə tərəfə atır. Pərvanə xanım bir əli ilə Mehdini və digər əli ilə çamadanını götürür. Qapının çərçivəsində dayanıb deyir: “Biz hazırıq. Həmədani çantanı əlindən alır. Maşına minirlər. Həmədani hərəkət etməmişdən qabaq Vəhəbin əllərini ağzının buxarı ilə qızışdıraraq deyir: “Atanın gül balası, dondun sən!”

Onlar bir az sonra yola düşürlər və qürub vaxtı Sərpol Zəhaba çatırlar. Pərvanə xanım şüşənin arxasından çölə tamaşa edirdi. Təəccüblə deyir:

– Qəribədir! Fevral ayıdır, amma burada qışdan xəbər yoxdur!

– Burada bahardır, bahar!

Sonra hər ikisi dizədək qalxan hündür yaşıllığa baxmağa başlayır. Külək əsdikcə göy otları tumarlayır, hər tərəfdən ora-bura uçuşan sərçələrin cikkiltisi eşidilir, düzənliklərdən gələn rütubət iyi yazın gəlişindən xəbər verir. Həmədani şüşəni aşağı çəkir və yağışın, təbiətin qoxusu onların burnuna dəyir və dərindən nəfəs alırlar. Pərvanə deyir:

– Bura cəbhə xətti idi?!

– İraq ordusu Sərpol Zəhaba çatanda, buralar arxa cəbhə sayılırdı.

– İndi cəbhə haradadır?

– Bir azdan Sərpol Zəhaba çatırıq. Şəhərin sağ tərəfi İraqla sərhəddir. Qarşıda bir guşə var, hal-hazırda ora cəbhə xəttidir. Amma əsas qızğın döyüşlər Qəsri-Şirin tərəfdə gedir. Onlar bütün şəhəri yerlə-yeksan etdikdən sonra geri çəkildilər və indi oradan şəhərin cəbhə xətti təyin edilib.

Onlar Sərpol Zəhabdan ötərək "Əbuzər" hərbi bazasına çatırlar. Qürub vaxtı idi və kazarmadan azan səsi gəlirdi. Həmədani maşını kənara çəkir və yaşıl bir ağacın yanında saxlayır. Üzünü Pərvanə xanıma tutub deyir: "Əvvəlcə gedək, o məsciddə namaz qılaq." Divarda əl-Əqsa məscidinin böyük təsviri olan məscidi göstərir. Pərvanə məscidə tərəf baxıb soruşur: "Adı Qüdsdür?" Həmədani təsdiq əlaməti olaraq, başını tərpədib maşından düşür.

Qadınlar bölməsində cəmi 4-5 ailə vardı. Amma namazdan sonra hamı məsciddən çıxanda, Pərvanə yüzlərlə döyüşçünün, könüllünün və hərbi geyimdə əsgərlərin şahidi olur.

Burada müharibənin hər şeyi, "Əbuzər" hərbi bazasının binalarında yaşayan və cəbhə xəttindən uzaq olan ailələrin həyatı da qəribə idi. Vərəqlədiyim səhifələr getdikcə gözümün önündə bədii təsvirə çevrilirdi... Bir anlıq başımı arxaya çevirib, pəncərədən bayıra baxdım. Sonra gözlərimi yumub, özümü kazarmanın otaqlarından birində təsəvvür etdim, otağımdakı nazik çəhrayı ipək pərdənin yerinə qalın ədyal asdım, bacardığım qədər pəncərələrə – bir tərəfindən digərinə böyük xaç şəklində yapışqanlı lent yapışdırdım. Sonra zehnimdə müharibənin getdiyini, düşmən təyyarələrinin şəhərin və evimizin üzərində dövrə

vurduğunu təsəvvür etdim. Bütün ev-eşik, pəncərələr silkələnsə də şüşələr qırılıb yerə tökülmür. Hər an bombaların başımıza tökülmə ehtimalı var, düşmən pilotları işıq görünən nahiyələri axtarırlar, amma pərdələr və qalın adyallar işığın zərrə qədər çölə düşməsinə imkan vermir. Bununla belə, biz təyyarələrin gurultu səslərindən şiddətli qorxu keçirir, qalın yorğanlar altında boğuluruq...

Pərvanə xanımla neçə başqa döyüşçü ailəsinin Əbuzər hərbi bazasında yaşayış şəraiti mənim təsəvvür etdiyim otaq kimi idi. Qalın adyallar, yapışqanlar, təyyarələr və şüşələr... amma döyüşçülərin ailələri bunlara öyrəşmişdilər və kazarmadan çıxmaq istəmirdilər; çünki xanımlar ərlərini və uşaqlar da atalarını həftədə bir dəfə görürlər. Pərvanə xanım həmin binalarda yaşayan daha bir neçə döyüşçünün həyat yoldaşları ilə tanış olmuşdular. Vəhəb uşaqlarla oyanır və onların hamısı mütəmadi olaraq həmin binalarda qalır və bayıra çıxa bilmirdilər. Vertolyotların enişini və qaçan döyüşçülərin sırasını görmək uşaqların əyləncəsi olsa da, bunlar da uşaqları neçə gün, neçə həftə və ya bir ay əyləndirə bilər. Bundan sonra yavaş-yavaş bəhanə gətirirlər, öz evlərini və əmilərini, bibilərini, nənələrini xatırlayırlar.

Məncə, Pərvanə xanım da ona görə Həmədaninin dostunun təklifini qəbul edir. Ailəsini Həmədana aparmaq istəyən döyüşçü Pərvanə xanıma deyir: "İstəyirsinizsə, bizimlə gəlin. Əlbəttə, bu barədə cənab Hüseyn Həmədaniyə xəbər verilməyib və özünüz qərara gəlməlisiniz." Pərvanə xanım qəbul edir və qonşularla sağollaşıb Həmədana qayıdır. Onlar axşam çağı Həmədana çatırlar və ertəsi gün kazarmanın bombalandığı xəbəri yayılır. Həqiqətən dəhşətlidir! O zaman oradakı

ailələrin təsviri Pərvanə xanımın gözündən bir an belə getmir və bu hadisəyə müsahibədə xüsusi olaraq toxunur.

Əbuzər hərbi bazası isfənd ayının 16-da bombalanır və Həmədani xəbəri eşidən kimi özünü ora çatdırır. Bunlar sonralar onun öz dilindən nəql edilən neçə sətirdir: “Mən kazarmaya çatıb, oradakı vəziyyəti görəndə, bütün bədənim titrədi! Döyüş meydanında belə görmədiyim səhnələrin şahidi oldum. Hər tərəfə səpələnən baş, qol, ayaq və s. tikələri müşahidə edərkən öz-özümə dedim ki, bunları yazmamaq daha yaxşıdır, qoy, ürəyimizdə qalsın, çox acı hadisədir! Bombardmanın binalara, insanlara, ümumiyyətlə, yaşayış yerlərinə nə böyük zərbə vurduğunu, yəqin ki, hamı bilir!" İstər-istəməz diqqətimi cəlb edən son neçə sətiri rəngli flomasterlə nişanlamalı oldum.

# Yeddinci fəsil

Son vaxtlar cənab Həmədaninin məzuniyyəti və ailəsinə baş çəkmə halları getdikcə azalırdı. 1985-ci ilin iyun ayında Nəmədani və neçə cəbhə komandiri yerli bələdçilərlə Oşnəve sərhədini nəzərdən keçirmək üçün İraqın ərazisinə daxil olurlar. Ora qərbdən İraqla həmsərhəddir və əksər əhalisini kürdlər təşkil edir. Bizim qərbi Azərbaycanla İraq arasında sərhəd şəhərlərindən biridir. Onlar lazımı azuqə və vəsaitlə otuz kilometrədək İraqın ərazisinə daxil olurlar. Bir sutkadan sonra müxtəlif formalı çadırların qurulduğu əraziyə çatırlar. Orada köçərilər məskunlaşmışdı. Onlar çadırlardan birinə qonaq olurlar. Çadır sahibi onlara çay süfrəsi tədarük görür. Hər biri çayını içəndən sonra stəkanlar yenə doldurulur və qonaqlara dörd-beş dəfə çay süzülür. Onlara dincəlməyə icazə verilmir və çay süfrəsi davam edir. Sanki çay içməyə məcbur idilər. Bu, əslində, onların bir-birlərinin dilini yaxşı başa düşməməyindən irəli gəlirdi. Həmin köçərilərin adətincə qonaq nimçədə stəkanı tərsinə çevirməyincə çay süzməyi özlərinə borc bilirdilər. Odur ki, qonaqların çayı içməkdən başqa çarələri yox imiş. Məni gülmək tutdu: "Əcəb işə düşüblər!"

Onlar köçərilərin bu qonaqpərvərliyindən sonra məntəqənin qalan nahiyələrini nəzərdən keçirməyə başlayırlar və bu işə iki gün vaxt sərf olur. Həmədani geri qayıdarkən yolda deyir: "Bizim bu ərazidə nə mühüm işimiz var?! Sizcə, bu məntəqəyə qüvvə yeritməyə dəyərmi?! Elə bilirəm, bura bizdən yersiz enerji alacaq və indi heç bir hərbi-strateji dəyəri yoxdur!"

Cənab Həmədani öz iclaslarında bu məsələni bir də təkrar edir. Elə həmin günlərdə Ənsarul-Hüseyn briqadasının Həmədandakı məsul üzvlərindən biri istefa verib, briqadadan ayrılır və Həmədani də onun istəyinə uyğun olaraq istefası ilə razılaşır. Hətta 1985-ci ilin avqust ayında özü də briqadanı tərk etmək qərarına gəlir.

Bir dəfə anam mənimlə Minaya uşaqlıq xatirələrindən danışdı. Dedi ki, böyük həyətli evdə yaşayırdılar. Həyətin dörd tərəfi mənzil idi və hər birində bir ailə yerləşmişdi. Dedi ki, ailələrdə əvvəlcə heç bir "sanam" yox idi. Dərhal soruşdum: “Sanam nədir?” Dedi ki, yəni xüsusi münasibət və ya məsələn, dostluq. Mina dedi: "Sus, qoy, danışsın!" Anam dedi: "Əvvəlcə heç bir tanışlığımız yox idi. Amma sonralar qonşularımızla qohumlardan da yaxın olduq; bacı-qardaş kimi. Bir neçə ildən sonra özümüz də ev alıb, oradan köçdük. Buna görə nənə bir həftə ağladı. Hamı ona yeni ev alandan sonra ağlamağın yersiz olduğunu deyəndə, cavab verərdi ki, ev sevginin yerini verməz, sadə məsələ deyil, neçə ildir bu insanlarla bir yerdə yaşayırıq!”

Cənab Həmədani "Ənsarul-Hüseyn-32" briqadası yarandığı gündən oradakı döyüşçülərlə bir yerdə olub, təxminən üç il! Orada öz evindən çox qalıb və demək olar, onlarla birgə yaşayıb. Odur ki, briqada ilə vidalaşmaq ona çox çətin idi. Müsahibələrin birində bu barədə onun öz dilindən belə nəql edilir: “Ənsarul-Hüseyn briqadası ilə vidalaşma həqiqətən həyatımın ən çətin anı olub. Briqada mənə öz övladım, böyüdüb başa çatdırdığım uşağım kimi əziz idi. Lakin bəzən insan ürəyinin bir parçası olan uşağından ayrılmalı olur. Vida gecəsi mənim üçün çox ağır keçdi. Dostların hər biri ilə vidalaşdıqca ürəyimdə gələcəkdə yenə onlarla birgə olmağı arzulayırdım...”

Həmədani briqadadan ayrıldığı zaman ona korpusun baş komandanı tərəfindən Gilanın "Qüds-16" diviziyasını yaratmaq tapşırılır. Həmin ərəfələrdə ailəsi uzun müddət idi ki, Həmədanda səbirsizliklə onun yolunu gözləyirdi. Nəhayət, Pərvanə xanım onun cəbhə yoldaşlarından birinin həyat yoldaşından eşidir ki, əri Gilan vilayəti üzrə yeni təşkil edilən “Qüds-16" diviziyasının komandiridir. O, bundan sora özünə təsəlli verərək ərinin gəlişinin gecikməyini bu məsələ ilə əlaqələndirir və cəbhədən qayıdanda ona belə deyir:

– Mübarək olsun, inşallah!"

– Nə?!

– Yeni ordu, yeni komandirlik...

– Komandirlik nədir! Mən sadə bir əsgərəm və hər şeydən öncə yoldaşıma və övladlarıma qulluqçuyam!

Sonra elə yerində diz çökür və kürəyini Vəhəblə Mehdiyə göstərərək deyir: "Tez olun, minin! İndi qatar yola düşəcək ha! Tələsin!" Vəhəblə Mehdi onun belinə minirlər və o da iməkləyərək otaqda dolanır. Evi uşaqların səs-küyü və gülüş səsləri bürüyür. O, uşaqları ilə o qədər oynayır ki, nəhayət, evin yaxınlığındakı məsciddən azan səsi eşidilir. Azan səsini eşidən kimi uşaqlara deyir: "İndi isə məscidə gedib namaz qılaq!"

O, uzun müddət cəbhədə olmağına baxmayaraq cəmi bir həftə evində qala bilir və bu bir həftədə olmadığı günlərin əvəzini çıxır. Pərvanə Xanım bunları Minaya nəql edərək deyirdi: "Həmin bir həftə ərzində günlərini yarıya bölmüşdü. Belə ki, günün yarısını Həmədan korpusunun məsul şəxsləri ilə keçirir, yarısını da bizimlə olur, alış-veriş edir, uşaqları gəzdirir və qohumlarına baş çəkirdi...”

Həyətin qapısı açıldı və cənab Həmədani bir dəstə gül kolu içəri daxil oldu. Gül kollarını həyətin kənarındakı

bağçaya qoydu. Sonra evin qabağında dayanıb, uşaqları səslədi: "Uşaqlar, gəlin həyətə! Pərvanə xanım sən də gəl!" O, bağçaya girdi və divarın yanındakı beli götürüb, torpağı belləməyə başladı. Şitilləri bir-bir basdırandan sonra uşaqlara dedi: "Bağbançılıqla aranız necədir?" Vəhəblə Mehdi də torpaqla oynamağa başladılar. Pərvanə xanım bir qədər aralıda, qapının yanında dayanmışdı və hövsələsi yox idi. Artıq son günün və son anların olduğunu bilirdi. Hətta ərinin çamadanını da bağlamışdı və bilirdi ki, neçə saatdan sonra cəbhəyə qayıdacaq. Həmədani su kranını açıb, bağçanı bir az suladı. Sonra barmağı ilə şlanqın ağzını sıxaraq həyətdə gəzişən uşaqlara tərəf çevirdi və onları islatdı. Yenə də həyət-bacanı uşaqların və atanın gülüş səsləri bürüdü. İstər-istəməz Pərvanə xanımın da dodaqlarında təbəssüm yarandı. Həmədani ona yaxınlaşdı və ovcunu su ilə doldurub, ona tərəf atdı. Bir qədər sonra onlarla vidalaşıb, cəbhəyə yollandı. Həyəti isə əkilən güllərin iyi bürümüşdü.

Mən o anlarda cənab Həmədaninin həyat yoldaşının hansı hislər keçirdiyini əsla anlaya bilmirdim.

***

Son günlər nədənsə Minanın mənə qarşı münasibəti dəyişmişdi və hərdən yazı-pozudan danışırdı. Deyirdi: "Həmişə yaşadığınız mühüm hadisələri yazmağa çalışın. Çünki hadisələrdə özünüzü personajların yerinə qoysanız, işinizi düzgün yerinə yetirəcəksiz..." İçimdə sual yarandı ki, görəsən, indi bunları yazmaqla öz işimi düzgün görürəm, ya yox? Çünki hətta onun təsəvvürü belə mənim üçün çətin idi. Mən ki, heç, inanmıram, kimsə özünü bu müsahibələrdəki personajların yerinə qoya bilsin. Amansız düşmən qoşunlarının Həmədanı və bir çox şəhərləri

bombaladığı günlərdə özünü iki uşaqlı qadının yerinə qoymaq çətin məsələdir. Hələ o qadın həmin gün hamilə olduğunu bilir. Həmçinin o gün bir nəfər onların evinə zəng edərək – “Ənsarul-Hüseyn briqadasından zəng edirəm. Cənab Həmədani lazım olan bir sıra sənədləri yaddan çıxarıb, evdə qoyub. Gəlib, onları götürməliyik!” onu hədələyir. Ertəsi gün yenə zəng edib deyir: “Əgər sənədləri verməsən, uşaqlarını oğurlayarıq!”

Göründüyü kimi bunların hər biri öz-özlüyündə təşvişə səbəb olur və hər şey tək qadının üzərinə düşdükdə isə daha qorxulu vəziyyət yaranır. Ona görə də mənə elə gəldi ki, heç kim özünü həmin personajların yerinə qoya bilməz.

Pərvanə xanım o hədə-qorxudan sonra Həmədan ordusuna gedərək əhvalatı danışır. Ona deyirlər ki, onlar Səddama və düşmənə muzdurluq edən münafiqlərin daxildəki casuslarıdır.

Bundan sonra Həmədaninin həyat yoldaşının nigarançılıqlarına yeni bir vahimə əlavə olur və uşaqlarına belə tapşırır: "Bu gündən sonra çox ehtiyatlı olun, qətiyyən tanımadığınız adamların motosikletinə və ya avtomobilinə minməyin!"

Vəhəb yaşca böyük idi və hər şeyə diqqət edirdi. Hətta hər gün evi nəzarət altında saxlayan şəxslərin get-gəlini hiss eləmişdi. Amma Pərvanə xanımın bundan xəbəri yox idi. O, bütün bu qorxularla mübarizə aparır və bayrama yaxın yoldaşı cəbhədən qayıdanda bütün xəbərləri və hamilə olduğunu ərinə danışır. Həmədani deyir: "Sən özün onların cavabını layiqincə vermisən və əmin olun ki , daha heç nə edə bilməzlər!" Sonra növbəti övladının dünyaya gəlişi məsələsi onu çox sevindirir və deyir: "Zəhra xanımın qədəmləri xeyirli və bərəkətli olsun!"

Pərvanə hələ uşağın qız, ya oğlan olduğunu deməsə də onun qız olduğunu hiss etmişdi və adını da qoymuşdu. Zəhra dünyaya gələndə isə atası cəbhədə idi və bir aydan sonra qayıdanda qızını görür. O, Həmədanda çox az qalır və bu müddət ərzində şəhid ailələrinə baş çəkir.

Bir gün evdən təzəcə çıxdığı halda yenidən tələsik evə qayıdır. Pərvanə soruşur:

– Nə olub?!

– Cəld yığışın, Kermanşaha gedirik!

Daha əlavə izah vermir. Amma Pərvanə başa düşür ki, qarşıya mühüm məsələ çıxıb və getməlidirlər. Tələsik məktəbdən Vəhəbin sənədlərini götürəndən sonra Kermanşaha yola düşürlər.

***

Kermanşahda evdən məktəbə qədər məsafə çox deyildi və Vəhəb o məsafəni piyada gedib-gəlirdi. Həmişəki kimi cənab Həmədani cəbhədə idi və Pərvanə xanım evdə Vəhəb, Mehdi və yenicə dünyaya gəlmiş Zəhra ilə qalırdı. O, Kermanşahda ərinin olmadığı günlər barədə müsahibəsində belə deyir: “Kermanşahda üç kiçik uşaqla tək qalırdım. Amma Hüseyn tez-tez bizə baş çəkirdi. Ürəyim nisbətən rahat idi. Evə gələndə bütün çətinlikləri unudardıq. Evin yanında kiçik bir park vardı. Bir gün Mehdini parka apardım. Zəhra qucağımda idi. Mehdi özü yelləncəyə mindi. Bir neçə dəfə yelləndikdən sonra pis yıxıldı. Uşağı xəstəxanaya apardım. Ayağını gipsə saldılar. Mehdi mənə çox bağlı idi. Odur ki, evdən bayıra çıxa bilmirdim. Ertəsi gün Vəhəbin dərsdən qayıtmasını gözləyirdim. Evə gələndə rəngi solmuşdu və təngnəfəs idi. Çantasını bir tərəfə atıb, döşəməyə sərildi. Soruşdum: “Nə olub, bala?” Dedi ki, gələndə üzübağlı bir kişi ilə iki qadın maşınla qarşımı kəsib, dedilər: “Atan bizi göndərib ki, səni

onun yanına aparaq!" Mən o qadınlardan birinə baxanda onun kişi olduğunu anladım. Elə qorxdum ki, oradan evədək dayanmadan qaçdım. Uşağın üz-gözündən öpüb dedim: "Oğul, burada da heç kəsə etimad eləmə!" O günlərdə tez-tez təhlükə siqnallarının səsi eşidir, vəziyyət qırmızıya keçəndə, sığınacaqlara yerləşməli idik. Amma sığınacağımız yox idi. Vəhəb süfrə üstündə oturmuşdu və məktəbə gecikdiyinə görə gileylənirdi. Mən də onun üçün çörək hazırlayırdım. Birdən dəhşətli bir səs gəldi. Çox qorxduq. Mehdi sınmış ayağı ilə ayağa qalxıb ayağımdan tutdu. Zəhranı qucaqladım; yuxudan oyanıb qorxu içində ağlayırdı. Vəhəb sadəcə baxırdı. Nə etsəm də, Zəhra sakitləşmirdi. Düşmən təyyarələri Kermanşah neftayırma zavodunu vurmuşdu. Göy üzü tüstüdən qaralmışdı. Yanıq iyi və partlayış qoxusu havada dolaşırdı. Nə edəcəyimi bilmirdim. Quranı götürdüm. Zəhra qucağımda idi, Vəhəb və Mehdi sağ-solumda. Quran oxumağa başladım. Yavaş-yavaş sakitləşdik... Aradan bir müddət keçmişdi və Mehdinin ayağının gipsini açmaq vaxtı idi. Vəhəb xəstələndi və qızdırması qalxdı. Həkimə müraciət etdikdə onu hindistanlı bir tibb işçisi müayinə edib, analiz yazdı. Analizin nəticəsini görəndə dedi: "İnfeksiya onun qanına keçib və mənim əlimdən bir şey gəlmir!" Narahatçılıqdan ağlayırdım, Mehdi və Zəhra da mənim yanımda idilər. Vəhəb qızdırmadan və halsızlıqdan ayağa qalxa bilmirdi. Evə qayıdırdıq. Evə yaxınlaşanda təyyarə səsi gəldi, amma uzaqda idi. Səs get-gedə yaxınlaşdı, sonra metoir kimi kəskin və düz bir şey səmanı yarıb şəhərin üstünə düşdü. İraq təyyarəsi bombalarını şəhərin başına boşaldandan sonra səmaya qalxdı. Bir neçə yerdən tüstü qalxdı. Yer titrəyirdi. Evə qədər qaçdıq, çatanda Mehdinin ayağı ağrıyırdı. Vəhəb huşunu itirirdi, Zəhra ağlayırdı. Hüseyn

ağa da eyni vaxtda evə çatmışdı. Onu görəndə elə bil dünyanı mənə verdilər. Məni görən kimi soruşdu: "Nə olub, Pərvanə?" Dedim: Vəhəbi doktora... Həkim Vəhəbin müalicəsini öhdəsinə götürmədiyini deyə bilməyib ağlamağa başladım. Hüseyn Zəhranı qucağına aldı. Əlini Vəhəbin isti alnına qoyuğ dedi: "Həmədana aparacağam, doktor Turabinin yanına". Soruşdum: "Nə vaxt?" Dedi: "Elə indi". Elə həmin gün Həmədana getdik. Doktor Turabinin diaqnozu hindli həkimin sözü ilə fərqli idi. O, dedi: "Yaxşı olacaq; yazdığım ampulları vaxtında vursanız yaxşı olacaq". Hər gün üç ampul vurulurdu. Hüseyn bizimlə olanda əlindən gələn heç nəyi əsirgəmirdi. Vəhəb yaxşılaşana qədər bizimlə qaldı. Ampulları vurdurmaq üçün gündə üç dəfə klinikaya aparırdı. Bir neçə gündən sonra Vəhəb məktəbə getmək istədiyini dilə gətirdi. Biz sevindik və onun yaxşılaşdığını başa düşdük.

Vəhəb yaxşılaşdıqdan sonra Kermanşaha qayıtsalar da, yenə də normal həyat sürə bilmirlər. Yaxşı, normal həyat normal insanlar üçündür. Amma məncə, cənab Həmədani normal olmamaq qərarına gəlmişdi; onun qərarı İslamı və ölkəni qorumaq və müdafiə etmək idi.

Düşünürəm ki, müharibə o qədər qəribə və qorxuludur ki, insanları qeyri-adi hala sala bilər. Bu səhifələr vasitəsilə kəşf etdim ki, bəzi insanların qeyri-adiliyinin əlamətlərindən biri də o adamın özü və ailəsinin taleyindən daha çox başqa insanların, vətəninin taleyini düşünməsidir.

Təhsil ilinin birinci yarısı bitməmiş ibtidai sinif şagirdi üç dəfə məktəbi dəyişirsə, bu, həyatın normal olmadığını göstərir. Cənab Həmədani yenidən Vəhəbin məktəb sənədlərini geri alır və onlar Kermanşahdan Əhvaza köçürlər.

Səna ilə məktəbin pavilyonunda oturmuşdum. Oxuduğum və yazdığım hər şeyi məktəbdə ona danışırdım. Mən deməsəm də, özü soruşardı. O dedi: “Yazıq Vəhəb, altı ayda üç dəfə məktəb dəyişir!" Başımı bulayıb dedim: "Hələ atası da yaralanır!" Dedi: "Cənab Həmədani yenə də...?!"

Bəli. O, Əhvaza gedəndən sonra yenidən yaralanır. Cənab Həmədaninin anası da orada idi. Həmədanidən xəbər almadıqları üçün çoxdan səbirsiz və narahat olmuşdular. Belə ki, onlar məcbur qalıb Əhvazın xəstəxanalarını gəzirlər. O zaman Vəhəb və Mehdi də çoxlu yaralı görür, amma onların heç biri cənab Həmədani deyildi. Xəstəxanadan qayıdanda evlərinin qarşısında təcili yardım maşını dayandığını görürlər...

Səna dedi: “Əvvəlki səhnələr kimi!”

Bəli. Hamısı təcili yardıma tərəf qaçırlar. Yenə ayağından yaralanmışdı. Amma bu dəfə ayaq üstə dura bilmirdi və əlil arabasında oturmuşdu. Bir güllə onun diz qapağına dəymişdi. Vəhəb atasını görəndə heyrətdən donub qalır.

Səna fikrə daldı. Cənab Həmədaninin həyatından danışandan sonra ikimiz də fikrə gedərdik; sanki bütün sözlərimiz bitirdi. Gözümüzü bir yerə dikib qalırdıq. Danışdığımız hər şeyi gözdən keçirib nə baş verdiyini görməyə çalışırdıq. Sanki istəyirdik ki, hər şey ürəyimizdə qalsın.

Cənab Həmədaninin həyatını yazıb festivala vaxtında çatdırmağı düşünürdüm. Yəqin buna görə idi ki, iki-üç gecə əvvəl Mina mənim otağıma gəlib dedi...

Sənanın səsi fikirlərimi dağıtdı: "Festivala cəmi on gün qalıb. Bitirəcəksən?" Çiyinlərimi çəkib dedim: "Deyəsən, Mina nəyisə başa düşür. İki gecə əvvəl mənə deyirdi ki,

niyə bu qədər dəyişmisən? Qəribə olmusan?!" Mən də dedim: "Yox! Nə deyirsən?!" Dedi: “Düz deyirəm də! Otağıma girmirsən, nout-bukuma dəymirsən, şkafda şal və şərflərimi tapa bilmirəm, axırıncı dəfə ayaqqabılarımı geyinib, dabanlarını əydiyindən çox vaxt keçir...” Səna gülüb dedi:

– Yazıq bacın sənin tələnə düşüb! Sən adam olmayacaqsan, onu narahat eləmə.

Mən də gülüb dedim:

– Bəlkə sonra kompensasiya verməli olum...

Səna yenə güldü. Çantamı köşkdəki skamyanın üzərinə qoydum. Sonra üzbəüz skamyada dayanıb, fit çalaraq dedim: "Kim köşkün bu tərəfindən o tərəfinə tullana bilsə..." Səna dedi: "Bacın düz deyir! Çoxdandır sənin bu cür oynamağını görməmişdim. İndi əvvəlki kimi olmusan..." İki-üç dəfə dizlərimi büküb, əllərimi yelləyib atıldım. Köşkün çölünə iyirmi santimetr qalmışdı:

– Ah! olmadı... yenə...

– Başını burax! Gedək.

– Yox! Axır, tullanmalıyam!

Üçüncü dəfə bacardım. Mən atlanmışdım və köşkdən bir neçə santimetr kənarda durmuşdum; amma topuğum ağrıyırdı. Bir əlim topuğumda idi, digər əlimi yumruqlayıb dedim: "Əhsən mənə! Bacardım..." Ondan sonra bu söz ağzıma düşmüşdü. Cənab Həmədaninin həyatı haqda müsahibələrdə oxuduğum və ya yazdığım hər yerdə onu deyirdim: “Əhsən mənə!" Bu mənim xoşuma gəlirdi və sanki məni irəli atırdı.

Səna təlim-tərbiyə müavinini məktəbin qarşısında görən kimi, "Gedim görüm festivalın vaxtı uzadılacaq?!" – deyib, o tərəfə qaçdı.

Yenidən oxuduqlarım və yazılarım barədə fikrə daldım. Bir müddət sonra cənab Həmədani yenə ailəliklə Əhvazdan Həmədana köçür. Fikirləşdim ki, bəzi insanların qeyri-adiliyini göstərən əlamətlərdən biri onların heç vaxt yorulmamalarıdır. Müsahibələri oxuduqca və irəlilədikcə bu sual ağlıma gəlirdi ki, bu şəxs niyə cəbhəyə gedib döyüşməkdən yorulmur. Bir neçə dəfə yaralanması, arvad-uşaqlarının tənhalığı onun cəbhəyə getməsinə necə mane ola bilmirdi?! Bir-birinin ardınca köçməkdən necə yorulmurdu?!

Cənab Həmədani bir çox əməliyyatlarda iştirak edir. Hətta komandir olduqdan sonra da döyüş meydanlarında idi; ən gərgin və ən çox ehtiyac duyulan yerdə; bəzən qərbdə, bəzən cənubda. Düşmənin hücumları artdığı yerdə həmədanlı sərkərdə hazır olurdu.

***

# Səkkizinci fəsil

Müharibə səkkiz il davam edir; ailələr və döyüşçülər üçün bütün çətinlikləri ilə şəhid vermək, xalq müharibəsi, ağır həyat və başa düşə bilmədiyim min bir başqa çətinliklər. Amma nəhayət, sona çatır; “Hər başlanğıcın bir sonu var” kəlamında deyildiyi kimi.

Müsahibələrdə oxudum ki, müharibənin sonu İranın BMT Təhlükəsizlik Şurasının 598 saylı qətnaməsini qəbul etməsi ilə nəticələnir. Mən qətnamə, bu say və Təhlükəsizlik Şurası haqqında heç nə bilmirdim. Masanın üstündən telefonumu götürüb axtarış apardım. Belə yazılmışdı: “Təhlükəsizlik Şurasının 598 saylı qətnaməsi: Birləşmiş Millətlər Təşkilatı adından bu qətnamə 1987-ci ilin iyun ayında İran-İraq müharibəsini dayandırmaq üçün verilmişdir və İraq onu dərhal, İran isə bir il sonra 1988-ci ilin iyun ayında qəbul edir. Qətnamənin qəbulu ilə müharibə 1988-ci il avqust ayının 20-də başa çatır.”

Bir neçə il əvvəl ilk dəfə televizordan "qəbul etdirilmiş müharibə" ifadəsini eşitdim. Atam xəbərlərə baxırdı. Soruşdum: "Qəbul etdirilmiş müharibə nə deməkdir?" Dedi: "Bu o deməkdir ki, müharibəyə biz yox, İraq başlayıb və biz onun qarşısında dayanıb torpağımızı qorumuşuq."

O zaman onun nə dediyi mənə aydın deyildisə, indi başa düşürəm. Bu səhifələrdə oxuduğum bütün dağıntıları, şəhid verməkləri, yaralanmaları, didərginlikləri kimin törətdiyini başa düşürəm. Cənab Həmədani sona qədər döyüş meydanında qalır. Pərvanə xanım qonşularından, cəbhədə olanlardan, o tərəfdən bu tərəfə xəbər çatdıranlardan Həmədani haqqında çox şey eşidirdi. Onun

mübariz həyat yoldaşı özünü qarşıdurmaların mərkəzinə çatdırır, ordunu nizama salır və münafiqləri tələyə salmağı bacarırdı.

Müharibədən sonra cənab Həmədaninin işi yaralıların və veteranların problemləri ilə məşğul olmaq, şəhid ailələrini ziyarət etmək olmuşdur. Cənab Səmavati də yaralananlardan biri idi. Düşmənin müharibədə istifadə etdiyi kimyəvi qazlardan onun qırtlaq hüceyrələri sıradan çıxmışdı. Həkimlər onun sağalmayacağını bildirmişdilər. Həmədani onu Almaniyaya göndərmək üçün sənədlərini düzəldirdi. O, göndərilir, amma oradakı həkimlər də sağalmayacağını deyirlər və Səmavati İrana qayıdır.

Cənab Həmədani onu Məşhədə, İmam Rzanın (ə) ziyarətinə aparmaq istəyir. Səmavati daha danışa bilmir. Bir müddət sonra həkimlər də eyni şeyi deyirlər. Pərvanə xanım deyir: "Hüseyn hər şeyi büruzə verən adam deyildi. Amma Səmavatinin vəfatı ilə sanki hüzn və qəm dəryasına batdı. Biz cənab Səmavatinin ailəsi ilə birgə yaşamışdıq. O, dünyadan köçəndən sonra Hüseyn onun uşaqlarına baxır, hətta onlara qarşı öz övladlarımızdan çox can yandırır, həmişə onların qayğısına qalırdı."

Cənab Həmədani o illərdə əsgərlərə lazımı şəraiti təmin etmək üçün çox səy göstərir. Özü də həmin illərdə təhsilini davam etdirərək universiteti əla qiymətlərlə başa vurur. Bundan sonra o, yenidən Ənsarul-Hüseyn-32 briqadasının komandiri olur. Həmədan vilayətinin əsgərlərinin və şəhid ailələrinin rifahı üçün böyük zəhmət çəkir.

Burada yazılıb ki, harada ailə çətinliyə düşərdisə, Hüseyn vəziyyəti ilə maraqlanar, əlindən gələni edərdi. Onun həmkarlarından biri deyir: "Həmədani bacardığı qədər döyüşçülərin, şəhid ailələrinin, hətta sadə insanların güzəranı və rifahı ilə məşğul olurdu. Bir gün onun yanında

idim, kredit almaq istəyənlərin siyahısını yoxlayırdı. Dedim ki, hacı, adlarını kreditə yazan qardaşların çoxu artıq bir dəfə bu imkandan istifadə ediblər. Hüseyn dedi: “Yəqin maddi ehtiyacları çoxdur. Maddi ehtiyacı olan insan əslində qürurunu sındırır. Elə isə, Allahın qulunun işində qüsura yol verməyin və yaxşılığa mane olmayın.”

Cənab Həmədani adi insanlara və ailələrə də köməklik göstərirmiş. Həmin ailələrdən birinin oğlu o günlərdən Minaya belə danışır:

– Ailəmizin sayı çox, on iki uşaq idik. Cənab Həmədani arabir evimizə baş çəkirdi. Biz Qumda yaşayırdıq və evimiz iki otaqlı idi. O günlərdə Qumun bir məhəlləsində bəzi torpaq sahələri bölünərək mənzil problemi olan insanlara satılırdı. O, bizim maddi durumumuzdan xəbərdar idi. Bir gün atamı görməyə gəlmişdi. Torpaq sahələrinin birini öz pulu ilə bizə aldığını öyrəndik. O torpaq sahəsini atama hədiyə etdi. Biz də o balaca evi satıb, həmin torpaq sahəsində daha böyük ev tikdik.

Gözlərimi yumub, yeni geniş evdə on iki xoşbəxt uşağı təsəvvür etdim...

Müharibədən sonra cənab Həmədaninin xeyirxahlıq işləri şəhərlərə, evlərə gedib çıxırdı.

***

Cənab Həmədani 1991-ci ildə ezamiyyətə gedir. Həmin ərəfədə ailəsi Kermanşaha köçür. Ezamiyyət bir ay çəkir və qayıdanda Pərvənə xanım və uşaqları onu kürd paltarında görürlər. Vəhəb sürücüdən həmin müddət ərzində atasının İraqın Kürdüstan vilayətində yerləşən separatçılara qarşı sərhəd boyu əməliyyata komandirlik etdiyini öyrənir.

Müharibə zamanı cənab Həmədani bütün çətin vəzifələri öz üzərinə götürdüyü halda, müharibədən neçə il

keçməsinə baxmayaraq, hələ də əvvəlki sərgüzəştlər eynilə davam edirdi.

Vəhəb məktəbdən qayıdanda çantasını divarın küncünə atıb arxada oturdu. Pərvanə Xanım ona yaxınlaşıb soruşdu:

– Nə olub, Vəhəb? Niyə əsəbisən?!

Bu gün sinif yoldaşım mənə dedi ki, hamıya briqada generalı rütbəsi veriblər. Sənin atan nə rütbəsi alıb? Ona dedim ki, mənim atamın dərəcəsi yoxdur.

Pərvanə xanım Vəhəbin çantasını yerdən götürüb otağa tərəf gedə-gedə dedi:

– Əgər atana bütün dünyanı da versələr, onun üçün fərqi yoxdur.

Vəhəb ayağa qalxıb otağa keçdi. Pərvanə xanım süfrəni yerə sərdi. Düyünün iyi evə dolmuşdu. Cənab Həmədani qapını açıb içəri daxil oldu. Pərvanə xanım göyərtini süfrənin ortasına qoyaraq soruşdu: "Əvvəlcə çay, yoxsa yemək?" Həmədani gülümsədi. O, ərinin cavabını gözləmədən tez mətbəxə keçib, bir stəkan çayla qayıtdı. Sanki səbri tükənmişdi və oğlundan eşitdikləri barədə onunla danışmaq istəyirdi. Üzbəüz oturub, Vəhəbin sözlərini ona dedi. Həmədani çayını içdikdən sonra yalnız bunu dedi:

– Ad və rütbələrin insana nə xeyri var?! Yeməyimizi yeyək?

***

Neçə gündən sonra Pərvanə xanım qarderobu səhmana salarkən ərinin briqada generalı formasını görüb sevinir. Amma öz-özünə gileylənərək deyir:

– Biz başqalarındanmı eşitməliyik ki, komandirsən?! Rütbənin yüksəldiyini gizlədirsən? Mən sənə forma tapım?!

– Rütbəni alan şəhidlərdir!

Sözünü deyəndən sonra general formasını geyinib gülümsəyir. Bir qədər sonra Pərvanə xanımın da üzündə təbəssüm yaranır, kədər və gileyini unudur.

Ürəyimdə dedim: "İnsan necə bu qədər təvazökar ola bilər?!"

Həmin günlərdə yoldaşı hamilə olduğunu hiss edir və yenə cənab Həmədani uşaq dünyaya gəlməmiş onu “Sara” adlandırır. Sara 1994-cü ildə dünyaya gəlir və bacısı Zəhra ilə təxminən doqquz yaş fərqi var idi. Sara və Zəhranın da mənimlə Mina kimi bir-biri ilə əylənib-əylənməməyini bilmək istəyirdim. Odur ki, dodaqaltı dedim: "Yəqin ki, olub! Hər halda böyük bacıların günahıdır..."

Sara dünyaya gəldikdən sonra cənab Həmədani bir daha ailəliklə Kermanşahdan Tehrana köçür. O zaman Pərvanə xanım ondan səbəbini soruşduqda, deyir: "Quru qoşunları komandirinin müavini təyin edilmişəm və bundan sonra Tehranda olmalıyam!" O zaman Vəhəb doqquzuncu, Mehdi ikinci və Zəhra üçüncü sinif şagirdi və Sara isə üç aylıq idi.

Pərvanə xanım müsahibədə Minaya deyirdi ki, əri o vaxtlar Tehranda uşaqlara çox vaxt ayırırdı. Onları parka aparır, Sara ilə əylənir, Vəhəb, Mehdi və Zəhranın dərsləri ilə məşğul olur, onlara hədiyyə almağa qədər işlərə vaxt sərf edirdi. Hətta həmin günlərdə ona əlavə bir vəzifə də verilir və ölkə üzrə Könüllülər Təşkilatının komandir müavini olur. Pərvanə xanım bu xəbəri də qonşuların birindən eşidir. Daha ondan sonra cənab Həmədaninin rütbə və vəzifə məsələsi Pərvanə üçün adi hala çevrilir və artıq bu barədə ondan heç bir şey soruşmur.

Amma Afrika ezamiyyətinə gəldikdə isə, bu dəfə cənab Həmədani özü bu haqda Pərvanə xanımla danışmaq istəyirdi. Pərvanə işi ilə məşğul ikən ona belə deyir:

– Məndən hara getmək istədiyimi soruşmaq istəmirsən?

– Hara gedirsən get, həmişə İmam Zamanın (ə) sayəsi altında ol!

– Afərin! Bu, zavallı Afrikaya xüsusi məqsədlə getmək istəyən şəxs üçün ən yaxşı duadır!

Bu sözdən sonra Pərvanənin neçə dəqiqə əvvəlki bütün sərbəstliyi narahatlığa çevrilir. Deməyə söz tapmayıb, mat-məəttəl qalır. Mən də müsahibələri oxuyanda bu qəfil ezamiyyətə təəccübləndim. Həmədani deyir: "Hacı Qasim Süleymani Qüds briqadasının komandiri təyin edilib. Afrikada ölkələrdən birinin prezidenti İsrailə qarşı mübarizə məqsədilə ölkəsində bizim Könüllülər Təşkilatı kimi ordu yaratmaq üçün İrandan kömək istəyib. Bu işlə əlaqədar ora getməliyəm!" Afrikadan qayıtdıqdan sonra isə onun vəzifələri bir az da artır.

Minanın cənab Həmədaninin vəzifələri ilə bağlı yazdığı mətnlərdə gözüm Suriya hadisələrinə toxundu: "2011-ci ildə Suriyada iğtişaşlar və münaqişələr başlayır... 2012-ci ilin yanvar ayında cənab Həmədani Suriyaya gedir..."

Mina mətnin altında bir ulduz qoyub, belə yazmışdı: “O illərdə Həmədanilər ailəsinin başına başqa acı və şirin hadisələr də gəlib. Övladları Vəhəb, Mehdi və Zəhranı evləndirməyi sevindirici hallar idisə, anasının ölümü ona böyük dərd oldu.

Bir anlıq gözlərimi yumdum. Vəhəb, Mehdi və Zəhranın uşaqlığı və sonra yeniyetməliyi haqqında oxuyub, yazdıqlarım xornoloji ardıcıllıqla gözümün önündən keçməyə başladı. Sonra düşündüm ki, bu yaşımda məndən böyük olan hər birinin dünyaya gəlişini,

böyüməsini və həyatını seyr etməyin özü maraqlı məsələdir. Fikirləşdim ki, bu günədək həmin səhifələrdə çox şeylərin şahidi olmuşam. Yəqin, Mina bunu bilsə, hökmən mənə “Hansı ki, heç biri sənin boy-buxununa çatmaz!” – deyər! Nə bilim! Bəlkə də deməz.

Minanın adı fikrimdə canlanan kimi başımdan tüstü çıxdı və saçlarım biz-biz oldu! İndiyədək hər biri üçün nə qədər zəhmətlər çəkdiyi müsahibələri belə rahat götürdüyümü bilsə, Allah bilir, nə qədər qəzəblənəcəkdir. Bunu fikirləşdikcə özümü yaxşı hiss etmirdim. Neçə dəqiqə sonra cənab Həmədaninin anasının oğlu üçün keçirdiyi acı hiss və ağrıları, hər dəfə onu qucaqlayıb üz-gözündən öpməyi və sairə gözümün qabağına gələrkən ürəyimdə dedim: "Budur yaxşı ana!" Sonra da oğlunun evində baş verən hadisəyə görə dünyadan köçdüyü səhəri yada salaraq kədərləndim. Belə ki, sübh dəstəmaz aldıqdan sonra qəfil yerə yıxılıb, ağrıdan “Belim sındı!” – deyə qışqırarkən birinci cənab Həmədani başının üstünə gəlir. Təcili yardımla onu tez xəstəxanaya çatdırırlar və zədələn nahiyədə cərrahiyyə əməliyyatı aparılır. Neçə saatdan sonra Pərvanə xanım, cənab Həmədani və bacısı əməliyyat otağının qapısından asılan lövhəni oxuyurlar: "Gövhərtac Şahkuhi, əməliyyat başa çatdı!" Bir az sonra növbəti lövhə asılır: "Təbii vəziyyətin bərpası!" Onlar nə qədər gözləsələr də “Gövhərtac Şahkuhi huşa gəldi!” lövhəsi asılmır. Nəhayət, əməliyyatın baş həkimi cənab Həmədanini öz otağına dəvət edərkən üzünü Pərvanə xanıma çevirərək deyir: “Anam getdi...”

Yenə ürəyimi dağlayan səhifələrə çatmışdım. Fikirləşdim ki, Gövhərtac Şahkuhi kimi bir ana bütün o illər ərzində nə qədər narahatlıq, qayğı və tənhalıq keçirə bilər və sonra da dünyadan belə getməsi nə qədər

kədərlidir! Qələmi qulağımın ardına taxıb, başımı ağ yazı masamın üstünə qoydum. Daha yuxum gəlirdi...

# Doqquzuncu fəsil

Cənab Həmədaninin ailəsi onun qəfil səfərlərinə öyrəşmişdi. O, ilk dəfə Qasim Suleymani ilə birgə Suriyaya gedir. Bir həftə sonra zəng edəndə telefonu Sara götürür:

– Ata, haradasan?!

– Özün tap görüm hardayam!

– Konqo?

– Bir az yaxın!

– Moskva! Almaniya! Nə bilim, Avropa?

– Aha yenə də.

Sara Livana çatana qədər davam edir. Atası deyir:

– Livana qonşu!

– Suriya! Suriya! Elədir?

Bu, Həmədaninin Suriyaya səfərinə başlanğıc idi. O, bir həftədən sonra qayıdır və ardıcıl olaraq iclaslara gedir, daim nələri isə qeyd etməyə başlayır. Pərvanə anlayır ki, get-gəllər elə-belə deyil və bu xəmir çox su aparacaq.

Cənab Həmədani hər dəfə ezamiyyətdən qayıdanda qızları, oğulları, kürəkənləri, gəlinləri və nəvələri gəlib bir yerə toplaşırdılar. Suriyadan qayıdanda uşaqları ondan soruşur: Ata, sənin Suriyada işin nədir?!

– Müşavirəm.

Bilmirəm "müşavir"in mənasını neçənci sinif kitabında oxumuşdum. Yadıma düşdü ki, məsləhətçi, müvəkkil və s. mənaları ifadə edir. Amma onun nə üçün Suriyaya müşavir kimi getməyini başa düşə bilmirdim. Yəni gedib, kiminsə məsləhətçisi olmaq istəyirdi, yoxsa bu fərqli məsləhət növü idi?!

Müsahibə vərəqlərinə baxdım. Artıq sona yaxınlaşırdım. Bu qədər oxuyub yazdığıma inana bilmirdim. Müşavir barədə daha çox məlumat əldə etmək üçün səhifələri yenidən vərəqlədim.

Cənab Həmədani Suriyaya gedəndə ölkənin bir çox əraziləri İŞİD qüvvələrinin əlinə keçmişdi və onlar Suriya və İraqda qətliam və misli görünməyən cinayətlərlə məşğul idilər və ora terrorist qrupların məskəninə çevrilmişdi. Suriya prezidenti cənab Bəşşar Əsədə qarşı baş alıb gedən kütləvi aksiyalar, hər yerdə törədilən iğtişaşlar tədricən bütün ölkəni əhatə etmişdi. Çünki bir çox ölkələr daxili etirazları dəstəkləyir, hökuməti devirmək istəyirdilər. Həmədani özü Suriyanın o vaxtkı daxili vəziyyətini belə açıqlayır: "Dövlətin strukturu ilə bağlı qeyd etməliyəm ki, hal-hazırda daxili təhlükəsizliyi təmin edən yalnız bir ordusu var və hətta nahiyə üzrə polis idarə və dairəsi belə yoxdur. Sadəcə sıravi polis məmurları yol və nəqliyyatın nizam-intizamı ilə məşğuldurlar... Odur ki, dövlət bizdən həm İŞİD, həm də etirazların qarşısını almaq üçün yardım istəyir. Amma təhlükəsizlik orqanları hələlik ordunun işlərinə müdaxiləyə icazə vermir və deyirdilər ki, bizə yalnız lazım olan hərbi vəsaiti təşkil edin. Biz də onlara səkkiz illik "müqəddəs müdafiə" təcrübəsini, indiyədək keçirdiyimiz müxtəlif böhranlardakı bilgilərimizi başa salmağa çalışırıq. Hər dəfə xahiş edirik ki, bizə əsgər və qoşunlarına təlimə keçmək icazəsi versinlər. Nəhayət, bu icazəni ala bildik..."

Cənab Həmədani Suriyanı böhrandan xilas edə biləcək böyük miqyasda bir plan cızır. O zaman Suriyanın əksər əraziləri İŞİD-in, qalanı isə hökumətin əlində idi. Yavaş-yavaş "böhran"lı vəziyyətin nə olduğunu anlamağa çalışırdım. Plana Livan Hizbullah təşkilatının baş katibi

cənab Seyid Həsən Nəsrullah öz rəyini bildirməli idi. Buna görə də Həmədani Dəməşqdən Beyruta gedir və bu haqda Seyid Həsən Nəsrullahla müzakirə edir. Neçə saat davam edən iclasda planın icrası barədə söhbət gedir. Planda Suriyanın siyasi, iqtisadi, mədəni, hərbi və təhlükəsizlik məsələləri birgə nəzərə alınmışdı. Seyid Həsən Nəsrullah deyir: “Çox yaxşı plandır! Amma hal-hazırda iqtisadi, siyasi, mədəni sahələrə girişməyə ehtiyac yoxdur. Bəşşar Əsəd başda olmaqla dövlət bataqlıqda boğulur və onun məhvinə az qalıb. Əvvəlcə dövləti bu bataqlıqdan çıxarmalı, sonra mədəni, iqtisadi, siyasi və s. sahələr barədə fikirləşməliyik...”

Cənab Həmədani onun mövqeyi və məsləhətləri ilə yaxından tanış olandan sonra plana düzəlişlər edir. Daha sonra plan neçə protokol formasında prezidentə təqdim edilir. Beləliklə, gənclər hərbi təlimlərə cəlb edilməli və lazım gəldikdə dövlətin təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak etməlidirlər. Odur ki, əsasən gənclər ordu sıralarına çağırılır və təlim keçərək hökumət və ölkənin müdafiəsi qərarına gəlirlər.

Oxuyub, yazdıqca başım gicəllənirdi. Bəzən hər paraqrafı dəqiq başa düşmək üçün iki-üç dəfə oxuyur, bəzən də düzgün başa düşməməyimə görə nigaran idim. Fikirləşirdim ki, bu işə başlamasaydım, bəlkə də heç vaxt bu qədər məlumat ələ edə bilməzdim.

2013-cü ilin mart ayı hətta prezident sarayının İŞİD tərəfindən mühasirəyə alınma xəbəri yayılmağa başlayır. Bəşşar Əsədin ölkəni tərk etmə və Suriya hökumətinin süqutu ehtimalı qarşıya gəlir. Belə böhranlı şəraitdə cənab Həmədaninin ona son təklifi bu olur: "Əgər hər şeyin bitdiyini düşünürsünüzsə, onda silah bazalarının qapılarını açın və əhalini silahlandırın ki, xalq özü terroristlərlə

mübarizəyə qalxsın!" O da razılaşır və elə həmin gecə xalq qüvvələri terrorist ünsürləri prezident sarayı ətrafından və hətta şəhərdən uzaqlaşdırır və dövlətin süqutu təhlükəsi aradan qalxır. Sonralar həmin xalq qüvvələri “milli müdafiə qüvvələri” adını daşımağa başlayır və düşmənlərə qarşı yenilməz orduya çevrilir.

Müharibə ilə bağlı hadisələri yazmaqdan yorulurdum. Dəftər-qələm və kağızları çantama qoydum, Minanın otağına keçərək qapının çərçivəsinə söykəndim. O, nout-bukun arxasında oturmuşdu. Gülümsəyərək dedi: "Səndən nə əcəb! Çoxdandı məni yada salmırsan!" Dodaqlarımda təbəssüm yarandı və ona tərəf getdim. Sonra stulun küncündə özümə yer edərək dedim: "Gəldim, görüm nə edirsən!" O da qışqırdı:

– Ay! Ayağım! Qalx ayağa, görüm!

– Nout-buku ver, yarım saat oyun oynayım. Bir azdan gedərəm.

Yenə qışqırdı: "Ana,! Nuranı çağır, işim qalıb! Qoymur..."

Dərhal qalxaraq dedim: "Yaxşı, adam kimi de ki, vacib işin var! Özüm gedərəm! Niyə ananı çağırırsan?!"

Qapıya çatanda, yenə səsi gəldi:

– Nura! Haçandan adam-madam sayan olmusan?!

Hətta üzünə baxmaq üçün də geri qayıtmadım. Telefonumu götürüb, həyətə düşdüm. Səna onlayn idi. Barmağımı "video zəng" kamerasına vurdum. Neçə dəqiqədən sonra həyət ikimizin hay-küyü və gülüşləri ilə doldu.

***

Müsahibələrin bu hissəsini oxuyanda nənəmin sözləri yadıma düşdü. Nənəm həmişə deyərdi: "İntizarda olmaq çətin məsələdir! Vaxtaşırı zəng eləyin, məni görməyə

gəlin! İntizar adamı öldürür! Yaxında da olsanız, adamın xəbəri olmayanda başına min cür fikir gəlir!"

İnsan ona yaxın bir nəfərin naməlum şəraitdə – qürbətdə və müharibədə olduğunu bilərkən, yəqin ki, bütün anları – Pərvanə xanımla övladları kimi – intizar və nigarançılıqla keçir. Onlar üç ildən artıq idi ki, hər dəfə həsrətlə cənab Həmədaninin Suriya və döyüş meydanlarından sağ-salamat qayıtmasını gözləyirlərmiş. Pərvanə xanım Minaya deyirdi ki, o günlərdə telefonu bir an belə əlindən yerə qoymurmuş və ərinin zəngini gözləyirmiş, hər gün nigaran halda Suriyada baş verən hadisə və xəbərləri izləyirmiş.

2015-ci ilin oktyabr ayı idi. Cənab Həmədani Suriyadan təzə qayıtmışdı. O, İslam İnqilabının lideri ilə korpus komandirlərinin birgə iclasında iştirak edir. Həmədani həmin görüşdən yüksək ruhla qayıdandan sonra Pərvanə xanıma deyir: “Mehdi ilə Vəhəbə zəng elə, gəlsinlər, onları görmək istəyirəm!” Vəhəbin evi uzaqda olduğu üçün tezliklə gələ bilməyəcəyini bildirdikdə, cənab Həmədani yenə ona zəng etməyi və atanın Suriyaya getməyə hazırlaşdığını çatdırmağı tapşırır ki, mütləq gəlsin. Sonra şkafın qapısını açıb, müharibə dövrünə aid fotoalbomu gətirir və əyləşərək dostlarının, yoldaşlarının şəkillərinə baxmağa başlayır. Sanki hər birini ilk dəfə görürmüş kimi diqqətlə şəkillərə tamaşa edir.

Uşaqlar bir-bir gəlib çatırlar. O zaman Vəhəbin oğlu Məhəmməd Hüseynlə Mehdinin qızı Reyhanə dörd yaşında idi və birgə oynayırdılar. Cənab Həmədani onlarla əylənməyə başlayır. Sonra Vəhəbin böyük qızı Fatiməni və Mehdinin dörd aylıq qızı Haniyəni qucaqlayaraq Mehdiyə deyir: “Bizim şəklimizi çək, xatirə qalsın!” Sonra

Vəhəblə Mehdinin hər birini ayrıca otağa çağıraraq onlarla xüsusi söhbət edir.

Cənab Həmədaninin o gecəki davranışı Pərvanə ilə uşaqların zehnində suallar yaradır. Nəhayət, oğulları, gəlinləri və nəvələrini qucaqlayıb, onları yola salır. Sonra da bir miqdar qoz-fındıq gətirib, sındırmağa başlayır. Pərvanə deyir:

– Nə edirsən? Bir az istirahət elə! Sabah...

– Sara səhər yeməyində qoz ləpəsi ilə pendiri xoşlayır. Neçə gün olmadığım müddətdə ləpəsiz qalmasın.

– Nə vaxt qayıdacaqsan?

– İki-üç günə.

– Doğrudan?

– Əlbəttə!

Sonra cənab Həmədani öz otağına keçir və Pərvanə xanım da qapının ardında dayanır. Həmədani səhərədək canamazın üzərində oturub, raz-niyaza qərq olur və yoldaşı da ona tamaşa edir.

O, səhər Pərvanə xanıma deyir:

– Çantamı hazırlamaq fikrin yoxdur? Bir də, Zəhra ilə əri Əminə zəng elə, gəlsinlər, getməzdən qabaq onları da görmək istəyirəm.

– Göz üstə! Bəs, onadək sən də bir az istirahət elə.

Amma bir az sonra onun öz otağında olmadığını və zirzəmidə soyuducunun buzlarını əridib, onu səhmana salmaqla məşğul olduğunu görür:

– Axı, sən dincəlməli idin! Bu işləri mən özüm edərəm.

– Qoy, sənə bir az kömək edim, bel ağrın var.

Cənab Həmədaninin rəftarı get-gedə Pərvanəni təşvişə salırdı və bu təşviş Zəhra ilə Saraya da keçirdi. Odur ki, çay içərkən atalarından soruşurlar: "Sən ki, həmişə pəhriz edərdin, indi nə əcəb, çayını halvayla içirsən?!" O da

"Neçə gündən sonra şəhid olacaq bir kəsə şəkərin az və ya çoxluğun fərqi yoxdur!" – deyərkən hər ikisi ağlamağa başlayır. Pərvanə xanım deyir:

– Niyə belə deyirsən?! Uşaqları bu sözləri deməyə çağırmışdın?!

– Dedim gəlsinlər ki, onlara doyunca baxım.

Qızları ağlamaq tutur. Pərvanə qəzəbini udub, yaranan ab-havanı dəyişmək üçün deyir:

– Onu bil ki, şəhid olsan, səni Həmədana aparan deyiləm!

– Aparарsan!

– Məni əziyyətə salma! Səni orada dəfn etsəm, onda daim Həmədanla Tehran arasında yol ölçməliyik!

– Sən də bil ki, vəsiyyətlərimdən biri Həmədanda şəhid dostlarımın yanında dəfnimdir! İndiyədək minlərlə tehranlı, həmədanlı, gilanlı dostların şəhadətinin şahidi olmuşam və hər birinin ürəyimdə dağı var"

Şəhid dostlarının adı gələndə Pərvanənin sözlərinin davamı boğazında ilişib qalır və qalxıb, cənab Həmədaninin otağına keçir. Görür ki, bir dəst paltar, dəsmal və kitabdan başqa onun üçün çantaya qoyduğu qalan əşyaları çıxarıb, kənara qoyub. Pərvanə ondan soruşur:

– Əlavə paltar və ləvazimatı niyə çölə qoymusan?!

– Onlara ehtiyac olmayacaq və tezliklə qayıdacağam.

Axşam saat 6-da cənab Həmədani çantasını götürür və qızlarını qucaqlayaraq Quranın altından keçir. Amma gedincə nəyisə itirmiş kimi neçə dəfə evə girib, qayıdır. Pərvanə soruşur:

– Nə isə olub?! Niyə narahatsan?

– Heç nə olmayıb!

Həyətdə qapının qabağında gözü əlindəki əqiq üzüyə sataşır və yenidən otağına qayıdır. Üzüyü ona dostu Mahmud Şahbazi hədiyyə vermişdi. Pərvanə də onun arxasınca otağa gəlir və görür ki, üzüyü güzgünün qabağına qoyub. Özündən asılı olmayaraq başı gicəllənir və ürəyi üzülür. Cənab Həmədani həyətə qayıdır və üçüncü dəfə olaraq onlarla vidalaşır. Sonra maşına tərəf gedir və oradan əlini yelləyir. Sürücü ayağını qaza basır və yola düşürlər.

Saat 9-da Tehran-Dəməşq reysinin vaxtı çatanda Pərvanə xanımın əl telefonuna mesaj gəlir. O, Minaya deyirmiş: “Hüseyn sms-filan yazan adam deyildi! Amma o gün mənə təyyarədən “Allaha əmanət olun!” yazaraq qısa mesaj göndərmişdi."

Birdən yazdığım bu neçə səhifənin qəhəri içimdə partladı və tez otağın qapısını bağlayaraq yerə oturdum və qapıya söykənərək Zəhra və Sara kimi hönkür-hönkür ağlamağa başladım.

# Onuncu fəsil

Son fəsilləri yazmağa bir həftə sərf etdim. Yazılarımı oxuyandan sonra dəftərimi küçədəki "internet-kafe"-yə verib dedim: "Bunları kompüterdə yazmaq üçün cəmi beş gün vaxtım var!"

Dördüncü gün ora baş çəkəndə kompüter arxasında oturan şəxs dedi: “Hələ hazır deyil!” Dedim: "Sabah günortayadək hazır olmasa, çox pis olacaq! Nə qədər əziyyət çəkmişəm! Sən Allah..." Gülərək dedi: "Lap yaxşı. Çox pis olmamaq üçün əlimdən gələni edərəm."

Ertəsi gün günorta məktəbə gedəndə yazılarımın A4 vərəqlərində çap olduğunu görəndə yaman sevindim. Oranın işçiləri Həmədaninin şəkli və altında Nuranın adının yazıldığını görəndə, soruşdular: "Yəni sən Həmədaninin həyatı barədə kitab yazmısan?" Həyəcandan hansı tərzdə "Yaşasın özüm!" – deyə qışqırdığımı anlamadım. Özümə gələndə gördüm ki, onları da gülmək tutdu. Dedilər: "Yaşasın yazıçı xanım!" Utansam da üzümdəki təbəssümü gizlədə bilmədim və dedim: "Nə qədər edir?"

***

Məktəbin pilləkənlərinə yetişərkən birdən Səna arxadan çiynimə vurdu, məni qucaqlayaraq dedi: "Festival üzrə rəis müavinindən eşitdim ki, qaliblərdən biri də sənsən!" Bilmirəm, nəyə görə gözlədiyim qədər şad olmadım. Yəni olsam da cənab Həmədaninin sərgüzəştini yazıb bitirdiyim qədər fərəhlənmədim. Halbuki iki ay əvvəl mətni yazıb qurtaranda sanki çiynimdən bir yük götürüldüyünü, dəyərli bir iş gördüyümü və dünyanın mənə verildiyini hiss eləmişdim. Qısası, o günlərdə özümü dünyanın ən

xoşbəxt insanı sanır və bunu heç bir mükafatla dəyişməyə razı deyildim.

Sonra beynimdə bir şəxsin böyük və çətin işə başlayıb, başa çatdırarkən onun adi, yoxsa qeyri-adi insan sayıldığı barədə sual yarandı. Özümə cavab verə bilməyib, sadəcə dedim: "Hər halda mənasız şeylər yerinə vacib bir işlə məşğul olmaq daha yaxşıdır!" Enerjim min dəfə artmışdı və özümü xoşbəxtlikdən buludların üzərində görürdüm. Mina da tez-tez deyirdi ki, sənə nə isə olub. Sənadan onun da qaliblərin arasında olduğunu soruşmaq istəyərkən məktəbin təlim-tərbiyə üzrə müavini özü bizə yaxınlaşıb dedi:

– Bərəkəllah! Yazdığın əsərin dərəcəsi hələ təyin edilməsə də, adın qaliblərin arasındadır! Sabah valideyninlə "Suruş" salonuna gəlin! Özüm şəxsən evinizə həm təbrik, həm də ünvanı vermək üçün zəng edəcəyəm!

Bunu eşidəndə, bir anda bütün sevinc və həyəcanım puç oldu. Məsələni bu qədər şişirtməyə və ailəyə aid olmadığını söyləməyə çalışsam da, dilim topuq vuraraq danışa bilmədim. Hətta əlləri ilə çiyinlərimdən sıxaraq "Afərin!" – deyib getdi. Sanki başıma bir qab soyuq su tökdülər. Məni ən çox narahat edən məsələ müsahibələri icazəsiz götürüb istifadə etməyim idi və heç bir halda Mina və ata-anamın xəbərdar olmalarını istəmirdim.

Sonuncu dərsimiz başa çatarkən zəng də çalındı. Fikrim tamamilə evdə idi. Mənə elə gəlirdi ki, müavinimiz evə zəng edəndə, çox güman ki, ata-anam evdə olmayıb və telefona Mina cavab verib. O da yəqin hər şeyi olduğu kimi deyərkən Mina da soruşub:

– Hansı festival?! Hansı əsər?!

– Bioqrafik əsər! Yəni tərcümeyi-hal!

Daha ardını təsəvvür etmək istəmirdim. Ürəyimdə deyirdim ki, Mina ya insult keçirəcək, ya da məni öldürəcək. Əlbəttə, haqqı da vardı. Bilirdim ki, həmin müsahibələrin təşkili və yazmağı üçün nə qədər vaxt sərf edib və onun kitab kimi nəşri üçün nə qədər marağı vardı. Əgər mənim ondan qabaq belə addım atdığımı bilsə..., hətta nəşriyyatla müqaviləsinin ləğvi ehtimalı yaranırdı. Mən özüm işin bu qədər böyüyəcəyini və hamının, əsasən də Mina və də ana-atamın xəbərdar olacağını düşünməmişdim.

Məktəbdən çıxanda bircə nənəmin yanında olmağımı istəyirdim. Yolda onların prospektinə sarı dönərkən Səna soruşdu:

– Xeyir ola! Niyə bu tərəfə?!

– Nənəm gilə gedirəm!

– Niyə?

Sinəmi irəli verərkən əlimdən tutaraq dedi:

– Başı xarab! Sənə nə olub?! Qalib olduğunu biləndən bəri sevinməyin yerinə, elə bil, gəmilərin batıb! Sənin yerində olmağı kim istəməz?! Mənim yazdığım isə heç bir bal qazanmayıb!

– Əl çək, Səna! Abrım gedir!... Mina məni öldürəcək!...

– Əvəzində mükafat alacaqsan!

– Daha mənə mühüm deyil!

Səna gözlərini bərəldərək dedi:

– Zarafat eləmə! Bəli, öz canın üçün!

Mən də çiyinlərimi çəkib, dedim: "İnanmaq istəmirsənsə, inanma!" Əlimi əlindən üzüb, yolumu dəyişdim. Gülüş səsləri gəldi və yüksəkdən dedi: "Elə isə mükafatını mənə ver!" Yoluma davam etdim. Yenə səsi gəldi: "Unutma! Adresi mənə də göndər, sabah anamla gələcəyəm..."

Nənəm qapını açan kimi soruşdu:
– Nura, nə olub?! Niyə evə getməmisən?!
– Deyərəm.
Eyvanın daş pilləkənlərində oturduq və hər şeyi ona danışdım. Dedi: "Nə deyim, qızım! Hələ gözlə, anana burda olduğunu xəbər verim." Yerimdən tərpənmədim. Nənəm evə girdi. Başımı əyib, qonaq otağına baxdım. Gördüm ki, mətbəxdəki masanın üstündən telefonunu götürüb, otağa keçdi və qapını örtdü. Əgər əvvəlki əhval-ruhiyyədə olsaydım, qalxıb qapının arxasından haqqımda nə danışdıqlarına qulaq asardım. Ayağa qalxa bilmədim və heç nəyə həvəsim yox idi. Sadəcə gözlərimi yumub, bütün hadisələri bir daha əvvəldən sona qədər yada saldım. Müsahibələri gizli götürdüyümə görə hədsiz nigarançılıq və peşmançılıq hissi keçirməyimə baxmayaraq, cənab Həmədaninin tərcümeyi-halını yazmağın sevinci hələ də ürəyimdə idi.
Gözlərimi yumub, cənab Həmədaninin ağarmış saç və saqqalı, gözlərinin altı və alnındakı cizgilərlə seçilən surətini təsəvvür etməyə çalışırdım; Pərvənə xanımın müsahibələrdə qeyd etdiyi kimi. Deyirdi: “Hüseyn Suriyaya gedəndən sonra onu cəmi dörd ay görməmişdik. Amma sanki dörd il qocalmışdı!”
Bəzən dövr insan üçün o qədər ağır keçir ki, zaman sanki sürünür. Yəni dörd ay o qədər uzanır ki, insanı dörd il qədər qocaldır. Bir anlıq cənab Həmədaninin qarşısında dayandığımı hiss etdim. Dayanıb, üzünə baxırdım. Ona dedim: "Sizcə, mən haqqınızda bir şey oxuyub, yazmamalı idim?!" Birdən nənəmin səsinə dik atıldım:
– Məlumdur, nə böyük səhv eləmisən!
Fikirləşdim ki, əgər Mina festivalın rəhbərinə, hətta katibinə desə,... yenə səsi gəldi:

– Hələ dur gəl, bir şey ye!

Bacardıqca mənfi fikirləri unutmağa çalışırdım. Amma anların öhdəsindən gələ bilmirdim. Hər biri yumağın sapı kimi uzanır, sanki zaman sovuşmaq istəmirdi...

***

Nənəm mənə dedi: “Yaxşı iş görməmisən, qızım! Hər şeyin bir qaydası var! Mina o müsahibələr və kitabın yazılması üçün nəşriyyatla müqavilə bağlayıb. Əgər nəşriyyatçı..." Artıq bu sözlərə hazır idim və onları eşidəndə bərk kədərlənirdim. Sözünü kəsərək dedim: "Bilirəm!" Başını bulayıb, mənim üçün sərdiyi döşəyin üstünə yastıq qoydu. Soruşdum: "Anama zəng edəndə Mina nə edirdi?" Dedi: "Yat daha." Ürəyimdə öz-özümə cavab verərək dedim: "Yəqin ki, hirsindən evdə şivən qoparıb və sonra da pəncərənin altında oturub ağlayıb. Habelə anama şikayətlənərək ürəyində məni pis danlayıb və ağzından çıxanı deyib. Nə bilim, bəlkə də..."

Bu fikirlərlə uzandım və nənəm də işıqları söndürüb yatağına girdi. Yataqda nə qədər o tərəf-bu tərəfə dönsəm də yuxum aparmadı. Birdən nənəm dedi: "Yaxşı, indi ki, yata bilmirik, onda mənə yazdığın kitabın hekayəsini danış!" Kitabın sözünü eşidəndə, yaman sevindim və ona tərəf döndüm. Oxuyub, yazdığım hər şey bir film kimi gözümün önündə idi. Odur ki, hər şeyi olduğu kimi danışmağa başladım. Sübh azanına yaxın cənab Həmədani Suriyaya getdiyi üçüncü günə və axşamüstü telefonla Pərvanə xanıma zəng edərək qızlarla hökmən dostlarından birinin qardaşının toyuna getmələrini tapşırdığı hissəyə çatdım. Əlbəttə, son dəfə vidalaşma zamanı Pərvanə xanımla qızların ürəyində yaranan nigarançılıqdan sonra onların toya getməyə könlü olmasa da onun təkidi ilə gedirlər. Onların fikri cənab Həmədaninin dediyi son

sözlərində qalmışdı: “Bu mənim son səfərimdi! Gedirəm, amma tez qayıdacağam! Məni Həmədanda Şəhidlər Xiyabanında şəhid dostlarımın yanında dəfn edərsiz!..."

Bu cür fikirlərlə insanın toya hazırlaşmağı çətin məsələdir. Onların heç biri cənab Həmədaninin o toya getməyə israr etməyinin səbəbini bilmirdi. Payız fəsli idi. Onlar Sari şəhərinə çatıb, axşam şadlıq sarayına gedirlər. Salonda əyləşəndən sonra bəyin qardaşının cənab Həmədaninin öz təklifi ilə Suriyaya apardığı gənclərdən biri olduğunu bilirlər. O, ailəsini bu toya göndərməklə yaranan boş yerini doldurmaq istəyirmiş.

Gecə dincəlmək üçün getdikləri yerdə Zəhranın ərinin telefonuna zəng gəlir. Pərvanə xanım kürəkəni Əminin nigaran üzünü görüb, iztirab keçirir. Kim olduğunu və nə dediyini soruşunca öz telefonu da zəng çalır. Cənab Həmədaninin dostlarından biri "Hacıdan nə xəbər? Hələ İrana qayıtmayıb?” – deyib, sözünü bitirir. Bundan sonra Pərvanə xanımın ürəyi elə döyünür ki, qızları və kürəkənlərinə üz tutaraq "Tehrana qayıdırıq! Elə indi!" – deməkdən başqa çarəsi qalmır.

Onlar gecə saat ikidə Tehrana tərəf yola düşürlər. Bir qədər sonra yenə Pərvanə xanımın telefonu zəng çalır. O, telefonu götürmür və sanki buna cürəti çatmır. Ardınca Zəhranın ərinin telefonuna zəng gəlir. Zəhra ilə Sara Əmindən soruşurlar: "De görək, nə baş verib?"

– Deyirlər ki, hacı yaralanıb!

Zəhra göz yaşları içində deyir: "Atam yaralansaydı, heç kim anamın telefonuna zəng etməzdi! Səncə, edərdi?!"

Əmin deyir: "Hacının vəziyyəti yaxşı deyil, komaya gedib!"

Onlar sübh azanı zamanı yol kənarındakı məsciddə namaz qılırlar. Ondan sonra Pərvanə xanım Vəhəbə zəng

edir. Vəhəb soruşur: "Yolda başınıza bir hadisə gəlməyib ki?!" Anası deyir: "Bizə yox, amma atan komadadır!" Vəhəb susur və neçə dəqiqədən sonra anası deyir: “Vəhəb, atan şəhid olub!”

O vaxtadək heç kim cənab Həmədaninin şəhadət xəbərini verməsə də, artıq Pərvanə xanımın ürəyinə ərinin şəhid olduğu əyan olmuşdu...

O, şəhid Həmədaninin möhtəşəm yas mərasimi haqda belə deyirmiş:

– Sanki o gün Hüseyn bizim deyildi və ona yaxınlaşmağa imkan yox idi. İrəlidə ölkənin əksər komandirləri və yüksək vəzifəli şəxsləri sıraya düzülmüşdülər. Qarşıdakı böyük plakatda yazılmışdı: “Əhməd Mütəvəssilian və İbrahim Himmətin keçmiş dostu şəhidlərə qoşuldu!” Tabut İranın şanlı bayrağı ilə örtülmüşdü. Hərbi formada əsgər dəstəsi tabutu müşayiət edirdi və hamı əllərində onun şəklini tutmuşdu. Tabutu hündür bir yerə qoydular və hərbi yürüş başladı. Hamı sükut içində mərasimi izləyirdi. Belə ki, hətta nəvəm Fatimənin zərif qığıltısını eşidirdim. Marşdan sonra hamı tabutun ətrafına toplaşdı və ağlaşma səsləri hava limanını bürüdü. Biz isə kənarda dayanmışdıq. O gün Hüseyn bizim deyildi...

***

Səhər nənəmdən Minanın halının nisbətən sakitləşdiyini və anamla atamın da mənim arxamca mərasimin keçirildiyi salona gələcəyini eşidəndə, bir az rahat oldum. Amma ürəyimdə hələ də Minaya görə narahat idim. Özümü onun yerinə qoydum. Həqiqətən yaxşı iş deyildi. Bir də ki, ana-atam və Mina ilə üz-üzə gəlməyə utanırdım. Həmçinin bizim evdə – hələ haqqın

olmadığı bir şeyi icazəsiz götürüb, işlətmək qalsın bir yana – heç vaxt belə gizli-xəbərsiz işlər olmayıbdır.

Nənəm dedi: "Hazırlaş, arxanca gəlirlər!" Tez əlindən tutub dedim: "Sən də bizimlə gəl!" Dedi: "Mən niyə?!" Dedim: "Nə olar, sən də gəl!" Həmişə nənəmin yanında özümü rahat hiss edirdim.

Təlim-tərbiyə idarəsinin zalında nənəm mənimlə valideynlərimin arasında oturdu. Deyəsən, get-gedə halım yaxşılaşırdı. Yavaş-yavaş özümü zəhmətinin bəhrəsini görməyə can atan bir şəxs kimi təsəvvür edirdim. Narahatlığım, nigarançılığım və kədərim azaldıqca həyəcanım çoxalırdı. Hələ də ata-anamla aramızda ağır sükut hakim idi. Festivalın rəhbəri iştirakçıların sayından, münsiflər heyətindən və qaliblərdən söz açaraq dedi: “Bu gün bura toplaşan şagirdlər fəxrimiz sayılırlar!...” Nənəmin dodaqlarında təbəssümü hiss edərkən ürəyim bir az da təskinlik tapdı. Ona demişdim ki, anama desin ki, gələndə telefonumu da gətirsin və gətirmişdi. Telefon əlimdə titrəyərkən sakitcə dedim:

– İndi danışa bilmirəm, Səna!

– Haradasan, Nura? Biz gəlmişik!

Yerimdən qalxıb, ətrafa baxdım. O, zalın qapısının qarşısında dayanmışdı və əlindəki buket gül üzünün yarısını tutmuşdu. Bir anlıq ətrafımda olan oturacaqlara baxdım. Hər yer dolu idi. Uzaqdan əlini yellədi və telefondan səsi gəldi:

– Səni gördüm! Mərasim bitənədək arxada oturaram!

– Kiminlə gəlmisən?

– Atam məni gətirdi!

Sənanı görəndə, Allah bilir, ürəkdən necə sevindim. Haçandan bəri neçənci yerə çıxdığımı bilmək istəyirdim. Elə bu vaxt qaliblərin adlarını ucadan oxumağa başladılar.

Adımı eşidəndə, istər-istəməz ayağa qalxdım. Baxışlarımla salondakı insanları süzməyə başladım. Nəhayət, gözlərimi şəhid Həmədaninin təsviri ilə adımı birgə göstərən böyük ekrana dikdim. Birdən atamın səsi gəldi: "Nura, get irəli, get!"

Səhnəyə qalxdım və ikinci yeri qazandığıma görə mükafat aldım. Sevincdən ağlayırdım. Oturduğum sıraya çatmamış Səna məni gül buketi ilə qarşıladı. İstər-istəməz gözlərim doldu. Qolumdan bir çimdik götürüb, dedi: "Yox əşi, sən də ağlaya bilirmişsən!" Gülümsədim. Atam dedi: "Get rəfiqənin yanında əyləş!" Hər ikimiz sevinclə zalın arxa oturacaqlarına keçdik. Şəhid Həmədaninin böyük təsviri hələ də monitorda idi. Sənaya dedim: "Mənim şəhidimdi..."

***

Sənanı evinə yola salandan sonra biz də hamımız evə qayıtdıq. Atam maşında mənə dedi: "Bilmirəm, sənə bərəkəllah deyə bilərəm, ya yox?!" Mən gülmək istəyəndə, anam dedi: "Yazıq Mina səhərədək yata bilməyib!" Nənəm dedi: "Özü səhv etdiyini bilir!" Mən də başımı tərpətdim. Amma yenə təsəvvürümdə Mina ilə necə üz-üzə gəlmək fikri canlandı və əl-ayağım buz kimi oldu. Sənanın aldığı gül buketinin ətri maşını bürümüşdü. Elə bu an ağlıma bir fikir gəldi...

Evə çatanda, anam Minanın otağına baş çəkdi və sonra əyilərək qapının bağlanmasına mane olan kiçik topu kənara qoyub, qapını bağladı. Nə olduğunu soruşunca dedi ki, yatıb.

Paltarımı dəyişib, iş masamın önündə əyləşdim. Bir qədər fikirləşəndən sonra Minaya üzrxahlıq məktubu yazaraq hər şeyi qeyd elədim: "...Mükafat da sənin olsun!

Məni özünlə nəşriyyata aparsan, hər şeyi özüm onlara başa salaram. Ondan sonra sən deyən olsun."

Nədənsə, o vaxtadək özümü bacıma bu qədər yaxın hiss etdiyimi düşünməmişdim. Mənə elə gəldi ki, həqiqətən onu ürəkdən istəyirəm. Amma bunu yazmadım. Sadəcə məktubun altına qırmızı flomasterlə onun üçün böyük ürək şəkli çəkdim və hədiyyə aldığım kartı da məktubun altına yapışdırdım. Sonra da ürəkdən bizim də münasibətimizin Sara ilə Zəhra kimi olması barədə fikrə daldım.

Qalxdım, gül buketi ilə məktubu götürüb, Minanın otağına sarı getdim. Nənəm gülümsədi. Qapını yavaşca açdım. Başına dəsmal bağlamışdı və üzərinə nazik yorğan atmışdı. Otağının pəncərəsi açıq idi. Eşikdə mülayim külək əsirdi. Otağının qapısı elə idi ki, onu açıq saxlamaq üçün qabağına nə isə qoymaq lazım idi. Balaca topu qapının qabağına qoymaq istədim ki, bağlanmasın. Əyilməyə hövsələm çatmadı və tələsik gül dəstəsi ilə məktubu masasına qoyub geri döndüm.

Onları qoyarkən birdən ürəyimdən o anda onu qucaqlamaq keçdi. Dodaqlarımda bir təbəssüm yarandı və dayanıb ona baxdım. Birdən-birə əsən mülayim payız küləyi gücləndi və pərdəni qaldıraraq otağın qapısını bərk çırpdı. Mina da dərhal qalxıb, yerində oturdu. Sonra əlini ürəyinin üstünə qoyub, dərindən bir nəfəs aldı. Başını çevirib mənə baxanda tez otağından çıxaraq qapını arxamca bağladım və nənəmə baxıb "Vallah, mən oyatmadım! Bu dəfə qəsdən deyildi, külək..." – deyincə qulaqlarımda Minanın çığırtısı cingildədi:

– Nuraaa!

# Mündəricat


Birinci fəsil ........................................................................2

İkinci fəsil ........................................................................9

Üçüncü fəsil ........................................................................18

Dördüncü fəsil ........................................................................30

Beşinci fəsil ........................................................................41

Altıncı fəsil ........................................................................48

Yeddinci fəsil ........................................................................62

Səkkizinci fəsil ........................................................................73

Doqquzuncu fəsil ........................................................................81

Onuncu fəsil ........................................................................89